KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR

№ 357 Dekabr 2016




AYLIQ DƏRGİ
ISSN 2218-2772

khazar-review.khazar.org


Türkdilli Dövlətlərin müstəqilliyinin 25-ci il dönümünə həsr



25





# İÇİNDƏKİLƏR


**Türk ölkələrində müasir akademik musiqiyə həsr olunmuş beynəlxalq konfrans** ........ 4

**Xəzər Universiteti Kamera orkestrinin qala konserti** ........ 8

**Hamlet İsaxanlının Ankarada işgüzar görüşləri** ........ 12

**Beynəlxalq təlim: Hasilat sənayesində hüquqi və fiskal baza** ........ 16

**Universitet xəbərləri** ........ 20

**Şair Ramiz Rövşənlə görüş** ........ 22

**"Dünya" məktəbinin yeni uğuru** ........ 23

**Ədəbiyyat İnstitutuna biblioqrafiyalar hədiyyə edilib** ........ 34

**"Dünya" xəbərləri** ........ 36

***Əli Rza Xələfli.* Yolum var könül evinə...** ........ 40

**NDU xəbərləri** ........ 44

***Teyyub Qurban.* Tarixi həqiqətlərə sədaqətli alim** ........ 46

***Авраам Шмулевич.* В Армении призывают начать антисемитские кампании в СМИ** ........ 50

**FHN- in əməkdaşları Xəzər Universitetində** ........ 56

**"Xəzər" bəstəkar Sərdar Fərəcovun müəllif konsertində** ........ 62

**"Qədim Şərq tarixi, coğrafiyası, mədəniyyət və ədəbiyyatı üzrə yarış"ın yarımfinal mərhələsi keçirildi** ........ 68

***Margo Pfeiff.* "Su pərisi"** ........ 70

**World's Most Visited Tourist Attractions** ........ 74



**1995-ci ilin yanvarından nəşr olunur**

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Redaksiya heyəti:**
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

**İngilis dilində mətnlərin redaktoru:**
Marta Lauri

**Rəssam:**
Mir Rafiq Əbdürrəhimov

**Kompüter tərtibatçısı:**
Gözəl Həbibova

**Foto:**
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

**It has been published since January 1995**

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isaxanli

**Associate editors:**
Alirza Balayev

**Editorial members:**
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

**Editor of English Texts:**
Martha Lowry

**Design by:**
Mir Rafig Abdulrahimov

**Computer graphics:**
Gozal Habibova

**Photo:**
Multimedia Centre

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Naziri

TÜRKSOY
ULUSLARARASI TÜRK KÜLTÜRÜ TEŞKİLATI
INTERNATIONAL ORGANIZATION OF TURKIC CULTURE

XƏZƏR UNİVERSİTETİ BAKI
KHAZAR UNIVERSITY

Azərbaycan Müəllifləri Birliyi
Azerbaijan Authors Society





# TÜRK ÖLKƏLƏRİNDƏ MÜASİR AKADEMİK MUSİQİYƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ KONFRANS

Dekabrın 3-də Xəzər Universitetinin Mərmər salonunda ("Neftçilər" kampusu) "Türk ölkələrində müasir akademik musiqi: inkişafı və perspektivləri" mövzusunda beynəlxalq konfrans keçirildi. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan respublikalarının bəstəkar və musiqişünaslarının iştirakı ilə keçirilən tədbir TÜRKSOY, Xəzər Universiteti və Azərbaycan Müəlliflər Birliyi tərəfindən təşkil olunmuşdu.




Tədbirdə TÜRKSOY, Xəzər Universiteti və Azərbaycan Müəlliflər Birliyinin rəhbərliyi və əməkdaşları, media mənsubları iştirak edirdilər.

Konfransın başlanğıcında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qonaqları salamlayaraq, konfransın mövzusu ilə əlaqədar qısa çıxış etdi. O, həmçinin bildirdi ki, universitetin Elmi Şurası türk xalqlarının mədəniyyətinin inkişafında töhfələrinə görə TÜRKSOY-un Baş katibi, professor Düsen Kaseinova Xəzər Universitetinin Fəxri doktoru adının verilməsi haqqında qərar qəbul etmişdir və sözü rektor Hassan Niknafsa verdi.

H. Niknafs D. Kaseinov haqqında qısa məlumat verəndən sonra fəxri doktor diplomunu ona təqdim etdi. D. Kaseinov bu şərəfə layiq görüldüyü üçün Xəzər Universitetinin rəhbərliyinə təşəkkürünü bildirdi və çıxış etdi.

Sonra Azərbaycan Müəlliflər Birliyinin sədri İsmayıl Məmmədkərimovun moderatorluğu ilə konfrans öz işinə başladı. Azərbaycan Bəstəkarlar İttifaqının katibi, musiqişünas, professor Zemfira Qafarova, Azərbaycan Milli Konservatoriyasının prorektoru, musiqişünas, professor Lalə Hüseynova, Qazaxıstan Bəstəkarlar İttifaqının katibi Balnur Kıdırbek və qazaxıstanlı bəstəkar Həbibulla Setekovun məruzələri dinlənildi. Məruzələr ətrafında müzakirələr aparılmaqla konfrans işini bitirdi.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Naziri

TÜRKSOY ULUSLARARASI TÜRK KÜLTÜRÜ TEŞKİLATI INTERNATIONAL ORGANIZATION OF TURKIC CULTURE

XƏZƏR UNİVERSİTETİ BAKI KHAZAR UNIVERSITY

Azərbaycan Müəlliflər Birliyi Azerbaijan Authors Society





# INTERNATIONAL CONFERENCE ON MODERN ACADEMIC MUSIC IN TURKIC COUNTRIES





On December 3, an event entitled "Conference on Modern Academic Music: Development and prospects. The preservation and development of musical diversity based on the example of protecting copyrights" was held in the Marble Hall of Khazar University's Neftchilar Campus. The conference was jointly organized by TURKSOY, Khazar University, and Azerbaijani Authors' Society and included the participation of composers and music scholars from the Republics of Azerbaijan, Kazakhstan, Kyrgyzstan, Uzbekistan, and Turkmenistan.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, opened the event with a welcoming speech. He announced that the Academic Council of the university had made a decision to award an Honorary Doctorate Degree on behalf of Khazar University to Mr. Dusen Kaseinov, General Secretary of TURKSOY and former Minister of Culture of Kazakhstan, for his invaluable contributions to the development of Turkic culture.

He gave the floor to University President Hassan Niknafs, who made a speech about Mr. Dusen Kaseinov and presented his diploma. Mr. Kaseinov made a speech to thank the university and the organizers of the event.

Then Ismayil Mammadkarimov, Chairman of the Azerbaijani Authors' Society, moderated the conference. Lectures were given by Professor Zemfira Gafarova, Secretary of the Azerbaijan Composers' Union and music scholar; Professor Lala Huseynova, Vice Rector of Azerbaijan National Conservatory and music scholar; Balnur Kidirbek, Secretary of Kazakhstan Composers' Union; and Habibulla Setekov, Kazakh composer. The conference ended with discussions about the lectures.











# XƏZƏR UNİVERSİTETİ KAMERA ORKESTRİNİN QALA KONSERTİ





Dekabrın 3-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filharmoniyasında Azərbaycan Respulikası Mədəniyyət və Turizm Nazirliyi, TÜRKSOY, Xəzər Universiteti və Azərbaycan Müəlliflər Birliyinin birgə təşkillatçılığı və Xəzər Universitetinin Kamera orkestrinin iştirakı ilə "Türkdilli dövlətlərin müstəqilliyinin 25-ci ildönümünə həsr edilmiş qala konsert" keçirildi. Konsertdə Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tatarıstan, Başqırdıstan respublikaları-

nın bəstəkarları və musiqişünasları, Azərbaycanın millət vəkilləri, ali təhsil ocaqlarının rəhbərləri, icra hakimiyyətlərinin rəhbər işçiləri, ictimaiyyət nümayəndələri və media mənsubları iştirak edirdilər.

Konsertin başlanğıcında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Azərbaycan Milli Konservatoriyasının prorektoru, musiqişünas, professor Lalə Hüseynova çıxış edərək, tədbirin türk xalqlarının musiqi sənətinin nümayişi baxımından böyük əhəmiyyət daşıdığını vurğuladılar.

Konsertdə Üzeyir Hacıbəyli, Qara Qarayev, Arif Məlikov, Xəyyam Mirzəzadə, Fərhad Bədəlbəyli, Samir Əliyev, Kərəm Əkbər (Azərbaycan), Rəşid Kalımullin (Tatarıstan), Muradbəy Beqalıyev (Qırğızıstan), Turğay Erdener (Türkiyə), Balnur Kıdırbek, Yerulan Kanapyanov, Həbibulla Setekov (Qazaxıstan), Rövşən Nepesov (Türkmənistan) və Leyla İsmaqılovanın (Başqırdıstan) kamera instrumental əsərləri ifa olundu. Konsertdə, həmçinin, Sərdar Fərəcovun Hamlet İsaxanlının sözlərinə bəstələdiyi iki vokal lövhə Azərbaycanın əməkdar artisti Fəridə Məmmədovanın ifasında səsləndi. Balnur Kıdırbek və Həbibulla Setekovun fortepiano və kamera orkesti üçün bəstələdikləri əsərləri pianoçu Zülfiyyə Sadıqovanın ifasında səsləndi. Əsərləri ifa olunmuş xarici bəstəkarlar konsertdə iştirak edirdilər.

Qeyd edək ki, beynəlxalq miqyaslı tədbirlərdə çıxış etmək təcrübəsi olan Xəzər Universitetinin Kamera orkestri universitetin Musiqi və İncəsənət departamentinin müdiri, pianoçu, dosent Zülfiyyə Sadığovanın bədii rəhbərliyi ilə fəaliyyət göstərir, orkestrin qala konsertinin dirijoru Cavad Tağızadə idi..








# KHAZAR UNIVERSITY CHAMBER ORCHESTRA IN GALA CONCERT



On December 3, a gala concert dedicated to the 25th anniversary of the independence of Turkic states was held at the Muslum Magomayev Azerbaijan State Philharmonic with the participation of Khazar University's Chamber Orchestra. The concert was jointly organized by the Ministry of Culture and Tourism of the Azerbaijan Republic, Turksoy, Khazar University, and Azerbaijani Authors' Society. Participants in the event included composers and music scholars from Azerbaijan, Russia (Tatarstan and Bashkortostan), Kazakhstan, Kyrgyzstan, Uzbekistan, and Turkmenistan; Members of Parliament of Azerbaijan; administrators of higher education institutions; members of government executive bodies; the public and media representatives.

At the beginning of the concert, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Professor Lala Huseynova, Vice Rector of Azerbaijan National Conservatory, made speeches about the significance of this event as an exhibition of Turkic cultural music traditions.



The concert included performances of pieces by composers such as Uzeyir Hajibeyli, Gara Garayev, Arif Melikov, Khayyam Mirzazadeh, Farhad Badalbayli, Samir Aliyev, Kerem Ekber (Azerbaijan), Rashid Kalimullin (Tatarstan), Muradbey Begaliyev (Kyrgyzstan), Turgay Erdener (Turkey), Balnur Kidirbek, Yerulan Kanapyanov, Habibulla Setekov (Kazakhstan), Rovshan Nepesov (Turkmenistan), and Leyla Ismagilova (Bashkortostan).

The concert also included a performance by Azerbaijan's Meritorious Artist Farida Mammadova of two pieces composed by Sardar Farajov based on poetry by Hamlet Isaxanli. Piano pieces composed by Balnur Kidirbek and Habibulla Setekov were also performed by Zulfiyya Sadigova. The foreign composers whose works were performed in the conference were present in the audience.

This international-scale musical event was led by Associate Professor Zulfiyya Sadigova, Head of the Department of Music and Fine Arts. The conductor of the orchestra for this concert was Javad Taghizadeh.







# HAMLET İSAXANLININ ANKARADA İŞGÜZAR GÖRÜŞLƏRİ

## ANKARA UNİVERSİTETİNİN REKTORLUĞUNDA

Dekabrın 19-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Türkiyədə Ankara Universitetinin rektoru, professor Erkan İbişlə görüşdü. H.İsaxanlı Ankara Universitetinin rektoruna Xəzər Universiteti haqqında geniş məlumat verdi və ona universitetin hədiyyəsini təqdim etdi. Görüş zamanı Xəzər Universiteti ilə Ankara Universiteti arasında əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulandı.

Universitet rəhbərləri universitetlər arasında əməkdaşlıq protokolu imzaladılar. Görüşdə H. İsaxanlı rektorun fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.





## ANKARA UNİVERSİTETİNİN TƏHSİL FAKÜLTƏSİNDƏ

Dekabrın 20-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Ankara Universitetinin Təhsil fakültəsində görüş keçirdi. Fakültənin dekan əvəzi professor Fatma Bıkmaz, dekan müavini dosent Dilek Acer H.İsaxanlını səmimi salamlayaraq, ona fakültədə həyata keçirilən proqramlar, tədris edilən fənlər haqqında geniş məlumat verdilər. Təhsil fakültəsinin rəhbərliyi gələcəkdə Xəzər Universiteti ilə birlikdə müxtəlif mübadilə poqramlarının həyata keçirilməsinin zəruriliyini vurğuladılar. İki dost universitetin təhsil fakültələri arasında sıx əməkdaşlığın inkişaf etdirilməsi, iki universitet arasında təhsilin bütün sahələrinə aid proqramlar həyata keçirtmək üçün təkliflər paketi hazırlanması qərara alındı.

Fakültə rəhbərliyi görüşə görə H.İsaxanlıya dərin təşəkkürünü bildirdi.



# ANKARA UNİVERSİTETİNİN MÜHƏNDİSLİK FAKÜLTƏSİNDƏ



Dekabrın 20-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Ankara Universitetinin Gölbaşında yerləşən Mühəndislik fakültəsində oldu. Fakültənin dekanı professor Aziz Tekin H.İsaxanlını səmimi salamlayaraq, Mühəndislik fakültəsi haqqında geniş məlumat verdi. Görüş zamanı hər iki universitetin mühəndislik fakültələrinin birgə proqramlar həyata keçirməsi qərara alındı.

Görüşdə Ankara Universitetinin Kompüter elmləri departamentinin müdiri professor İman Askerbeyli, Xəzər Universitetinin Türkiyə üzrə təmsilçiləri Hüseyin Ayhan və Murat Ekinci də iştirak etdilər.



# HACETTEPE UNİVERSİTETİNDƏ

Dekabrın 20-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Hacettepe Universitetinin rektoru professor Haluk Özenlə görüşdü. Qəbul zamanı H.İsaxanlı Hacettepe Universitetinin rektoruna Xəzər Universitetinin fakültələri, bu günə kimi əldə etdiyi nailliyyətlər haqqında geniş məlumat verdi. Rektor H.Özen universitetə gəldiyinə görə H.İsaxanlıya dərin təşəkkürünü bildirdi və gələcəkdə əməkdaşlığın davam etdiriləcəyinə əminliyini bildirdi.

# QAZİ UNİVERSİTETİNDƏ



Dekabrın 20-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Qazi Universitetinin rektoru professor İbrahim Uslanla görüşdü. Onlar öz universitetləri haqqında geniş məlumat verdilər və hadiyyə təqdim etdilər. Görüş zamanı Xəzər Universiteti ilə Qazi Universiteti arasında əlaqələrin bundan sonra daha da genişləndirilməsi qərara alındı.



## ORTA DOĞU TEKNİKİ UNİVERSİTETİNDƏ

ODTÜ

Dekabrın 22-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Türkiyədə Orta Doğu Tekniki Universitetinin rektoru professor Mustafa Verşan Köklə görüşdü. H.İsaxanlı ODTU-nun rektoruna Xəzər Universiteti haqqında geniş məlumat verdi və universitetin hədiyyəsini ona təqdim etdi.

Görüş zamanı Xəzər Universiteti ilə ODTU arasında bundan sonra əlaqələrin daha da genişləndirilməsi lüzumu qeyd olundu.

Mustafa Verşan Kök universitetə gəldiyinə görə Hamlet İsaxanlıya dərin təşəkkürünü bildirdi və ona hədiyyə təqdim etdi.

## TƏHSİL FAKÜLTƏSİNİN MƏZUNLARI İLƏ GÖRÜŞ

Dekabrın 16-da Xəzər Universitetinin Təhsil fakültəsini 2016-cı ildə bitirmiş bakalavr məzunları ilə universitet rəhbərliyinin görüşü keçirildi. Görüşdə Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı, Təhsil fakültəsinin dekanı Elza Səmədova və Məzunlarla İş Mərkəzinin direktoru Baba Bayramlı iştirak edirdilər. Görüşün keçirilməsinin məqsədi universitetin məzunları ilə əlaqə saxlamaq və onların gələcək planlarını müzakirə etmək idi.

Tədbir zamanı məzunlar universitetlə bağlı fikirlərini və təəssüratlarını bildirdilər.

## SCHOOL OF EDUCATION MEETS WITH ALUMNI

On December 16, the university administration held a meeting with 2016 bachelor-level graduates of the School of Education. Participants in the meeting included Dr. Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs; Dr. Elza Semedli, Dean of the School of Education; and Baba Bayramli, Director of the Center for Alumni Relations. The objective of the meeting was to maintain relationships with alumni and discuss their future plans.

At the end of the meeting, alumni shared their thoughts and impressions of the university.





# REKTOR BİRİNCİ KURS TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞDÜ

Dekabrın 15-də Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs Humanitar və sosial elmlər fakültəsinin birinci kurs tələbələri ilə görüşdü. Görüşdə Humanitar və sosial elmlər fakültəsinin dekanı Dr. Cabir Xəlilov, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayev və Humanitar və sosial elmlər fakültəsində dekan köməkçisi Paşa Aydayev iştirak edirdilər.

Dr. Hassan Niknafs tələbələrə universitetdə təhsil alacaqları 4 il ərzində yaradılacaq şərait və imkanlardan danışdı, təhsillərini uğurla davam etdirmələri üçün onlara tövsiyələrini bildirdi.

Sonda tələbələrin sualları cavablandırıldı.





# PRESIDENT MEETS WITH FIRST-YEAR STUDENTS

On December 15, 2016, Dr. Hasan Niknafs, President of the University, met with first-year students. Participants in the meeting included Associate Professor Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; Elmar Mustafayev, Coordinator of the Department of Political Science and International Relations; and Pasha Aydayev, Assistant to the Dean of the School of Humanities and Social Sciences.

Dr. Hasan Niknafs spoke to the students about the opportunities that would be offered to them during their four years of study, and he made suggestions to help them study successfully. At the end of the event, students' questions were answered.

## TƏSİSÇİ REKTORLAR ŞURASINA MÜNASİBƏTİNİ BİLDİRDİ

Dekabrın 14-də Hafta.az xəbər saytında "Rektorlar Şurası təhsilə nə verəcək?" başlıqlı məqalə dərc edilmişdir. Məqalədə Təhsil naziri Mikayıl Cabbarovun sözlərinə istinadən yaxın vaxtlarda Azərbaycanda Rektorlar Şurası yaradılacağı qeyd olunur. Məqalə müəllifi bununla bağlı təhsil ekspertlərinin fikirlərini öyrənmişdir.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da mövzu ilə bağlı fikirlərini bildirmişdir.

Məqaləni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

*http://hafta.az/index2.php?m=yazi&id=191557*

## FOUNDER SHARES VIEWS ON RECTORS' COUNCIL

On December 14, 2016, an article entitled "What Will the Rectors' Council Contribute to Education?" was published on the Hafta.az news site. The article quotes Minister of Education Mikayil Jabbarov saying that a Rectors' Council will be established in Azerbaijan in the near future. The author of the article learned various educational experts' views on this topic.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, is among those quoted in the article.

The article is available at the following link:

http://hafta.az/index2.php?m=yazi&id=191557

# BEYNƏLXALQ TƏLİM:

# HASİLAT SƏNAYESİNDƏ HÜQUQİ VƏ FİSKAL BAZA






Dekabrın 5-7-də Xəzər Universitetinin mərmər zalında Avrasiya Bilik Mərkəzi, Xəzər Universiteti və Təbii Sərvətlərin İdarə edilməsi İnstitutunun (Natural Resource Governance İnstitute – NRGİ) təşkilatçılığı, İsveçrə İqtisadi Əməkdaşlıq Ofisinin (SEKO) maliyyə dəstəyi ilə "Hasilat sənayesində hüquqi və fiskal baza" mövzusunda beynəlxalq təlim keçirildi. Təlimin məqsədi iştirakçılarla Avrasiyanın neft və qaz ixrac edən ölkələrinin hüquq və maliyyə rejimlərini müzakirə etmək, onlarla bu mövzuda treninq keçmək idi.

**TƏDBİRDƏ AZƏRBAYCAN, QAZAXISTAN, QIRĞIZISTAN, MONQOLUSTAN, TACİKİSTAN VƏ UKRAYNADAN 27 NƏFƏR MÜTƏXƏSSİS İŞTİRAK EDİRDİ.**







Təlimin açılışında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, SECO-nun regional direktorunun müavini Simone Haeberli çıxış edərək, iştirakçıları salamladılar və onlara treninq prosesində səmərəli iş arzuladılar.

NRGİ-nin regional direktoru Qalib Əfəndiyev çıxışında qeyd etdi ki, Avrasiya Bilik Mərkəzi ilk dəfə olaraq, hüquqi məsələlərə və fiskal bazaya həsr olunmuş təlim keçirir. Bu mövzuda təlimin keçirilməsi regiondakı ölkələrin buna ehtiyacı olması ilə əlaqədardır.

Avrasiya Bilik Mərkəzinin direktoru, Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinn dekanı İnqilab Əhmədov təlimin ilk sessiyasını açdı. NRGİ-nin hüquq məsələləri üzrə eksperti Amir Shafaie "Normativ-hüquqi baza və müqavilələrin rolu" mövzusunda təlim keçirdi. Digər mövzularda da təlimlər oldu. "Lisenziyaların bölüşdürülməsi və danışıqlar" mövzusundakı ikinci iclas hüquqi konsepsiyalar əsasında qrup halında praktiki məşğələ kimi keçirildi.













Tədbirin ikinci günü hasilat sənayelərində fiskal alətlərinə həsr olundu. NRGT-nin Monqolustandan olan eksperti Dorjdari Namkhaijantsan "Mənbədən gəlirə" mövsuzunda təlim keçirdi. Sonra iştirakçılar təbii sərvətlərin gəlirlərinin şirkətlə dövlət arasında düzgün bölüşməsi haqqında müzakirədə apardılar. Amir Shafei "Əsas fiskal alətləri" haqqında çıxış etdi. İştirakçıların sualları cavablandırıldı. İştirakçılar 4 qrupa bölünüb, praktiki tapşırıq yerinə yetirdilər.

Təlimin üçüncü günündə "Fiskal modelləşdirmə: bu nə üçün lazımdır?", "Praktiki iş - modelləri necə tətbiq etməli?" və digər mövzularda təlimlər keçirildi. Təlimçilər Amir Shafei və Dorjdari Namkhaijantsan idi.

Günün sonunda üçgünlük təlimə yekun vuruldu, iştirakçılara sertifikat təqdim olundu.















# INTERNATIONAL EURASIA HUB TRAINING: LEGAL AND FISCAL FRAMEWORKS OF EXTRACTIVE INDUSTRIES

On December 5-7, Eurasia Extractive Industries Knowledge Hub, Khazar University and Natural Resource Governance Institute – NRGI) jointly held a training on "Legal and Fiscal Frameworks of Extractive Industries." The objective of the event was to discuss and offer training on the legal and fiscal models of countries operating extractive industries in oil and gas in Eurasia. 27 specialists from Azerbaijan, Kazakhstan, Kyrgyzstan, Mongolia, Tajikistan and Ukraine participated in the event.

The founder of Khazar University and Chairman of Board of Directors and Trustees, Prof. Hamlet Isaxanli, welcomed the guests. The Regional Deputy Director of Swiss Cooperation Office, Ms Simone Haeberli, followed his speech, welcoming the participants and wishing them fruitful learning processes at the training sessions.

Galib Afandiyev, the NRGI regional director, noted that this was the first Eurasia Knowledge Hub training on legal issues and fiscal frameworks. The topic was selected because of a felt need in the countries of the region.

Ingilab Ahmadov, director of the Eurasia Knowledge Hub and Dean of the School of Economics and Management at Khazar University, opened the first training session. Afterwards, Amir Shafaei, Senior Legal Expert from NRGI, New York, led the training course on "Legal Frameworks and License Allocation." Other trainings were also held. During the second session on License Allocation, participants completed practical tasks in groups based on legal concepts.

The second day of the training was dedicated to the Fiscal Tools in Extractive Industries. NRGI's expert from Mongolia, Dorjdari Namkhaijantsan, started the day with a lecture on "From Resources to Revenues." The presentation provoked questions about the local content requirements and distribution of revenues on natural resources between the company and state.

Senior Legal Analyst from NRGI, Amir Shafaei, delivered a session on "Main Fiscal Tools." The presentations were followed by a question and answer session. Thereafter, participants were divided into four groups for Practical Assignment on Fiscal Tools.

On the third day of the training, topics included "Fiscal Modeling: Why is it necessary?", "How to Apply Practical Working Models," and more. The trainers were Amir Shafei and Dorjdari Namkhaijantsan.

The training was wrapped up on the third afternoon and participants were given certificates.







# HAMLET İSAXANLI AZƏRBAYCAN DMX-NİN SƏDRİ GENERAL-MAYOR FİRUDİN NƏBİYEV İLƏ GÖRÜŞDÜ

Noyabrın 28-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Azərbaycan Dövlət Miqrasiya Xidmətinin sədri general-mayor Firudin Nəbiyev ilə görüşdü. Görüşdə Xəzər Universiteti ilə Azərbaycan DMX arasında əməkdaşlıq məsələləri müzakirə olundu. Azərbaycana dəvət edilən mütəxəssislərlə, o cümlədən alim və müəllimlərlə bağlı problemlər barədə fikir mübadiləsi aparıldı.

Müzakirələr zamanı 2017-ci ilin martında Xəzər Universiteti və Azərbaycan DMX-nin təşkilatçılığı ilə Xəzər Universitetində tematik konfrans keçirilməsi qərara alındı.

# HAMLET ISAXANLI MEETS WITH MAJOR GENERAL FIRUDIN NABIYEV, HEAD OF STATE MIGRATION SERVICES

On November 28, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, met with Major General Firudin Nabiyev, Head of the State Migration Services of the Azerbaijan Republic, at the Migration Services office. They discussed partnership opportunities between Khazar University and Azerbaijan State Migration Services. They also exchanged ideas about issues related to foreign specialists and scholars visiting Azerbaijan. As a result of their discussions, they made a decision that Khazar University and Azerbaijan State Migration Services will jointly organize a thematic conference in March 2017.

# TƏHSİL NAZİRLİYİNİN BEYNƏLXALQ KONFRANSINDA

Azərbaycan Respublikası Təhsil Nazirliyi Akkreditasiya və nostrifikasiya idarəsinin təşkilatçılığı ilə dekabrın 2-də Abşeron Marriot otelində "Təhsilin keyfiyyətinin təminatında akkreditasiyanın rolu" mövzusunda beynəlxalq konfrans keçirilidi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı konfransın plenar sessiyasının spikerlərindən biri idi. O, spikeri olduğu "Keyfiyyətin təminatında maraqlı tərəflərin iştirakının gücləndirilməsi" adlı panelə həm də moderatorluq etdi.

Konfransda Xəzər Universitetindən Təhsil fakültəsinin dekanı, fəlsəfə doktoru Elza Səmədli və müəllimi Qoşqar Məhərrəmov, Keyfiyyətə nəzarət mərkəzinin direktoru Lyudmila Sotova iştirak etdilər.

# AT AN INTERNATIONAL CONFERENCE OF THE MINISTRY OF EDUCATION

On December 2, the Ministry of Education of the Azerbaijan Republic held an international conference on "The Role of Accreditation in Quality Assurance in Education" at the Marriott Absheron Hotel. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was one of the plenary speakers at the event. He was also the moderator of the panel on "Strengthening the Participation of Stakeholders in Quality Assurance," in which he made a presentation.

Dr. Elza Semedli, Dean of the School of Education; Lyudmila Sotova, Director of the Quality Assurance Center; and Goshgar Maharramov, instructor of the School of Education, also represented Khazar University at the conference.

## LÜTFİ ZADƏ MƏNTİQ OLİMPİADASININ QALİBLƏRİNƏ MÜKAFAT TƏQDİM OLUNDU

Dekabrın 6-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Nizami Kino Mərkəzində Bakı məktəblərinin 5-6-cı sinif şagirdləri arasında keçirilmiş Lütfi Zadə məntiq olimpiadasının qaliblərinin mükafatlandırılma mərasimində iştirak etdi. O, çıxışında məntiq elminin inkişaf tarixinə qısa nəzər saldı, Lütfi Zadənin həyat yolu və elmi fəaliyyəti haqqında məlumat verdi, beş elm və sənət adamının, o cümlədən Lütfi Zadə və Hamlet İsaxanlının qurduğu Avrasiya Akademiyası haqqında danışdı, şagirdlərə medal və diplomlarını təqdim etdi.

## LOTFI ZADEH LOGIC OLYMPIAD WINNERS GIVEN AWARDS

On December 6, 2016, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, participated in an awards ceremony for winners of the Lutfi Zadeh Logic Olympiad which was held in the Nizami Movie Theater for fifth and sixth grade students of Baku schools. He gave a brief overview of the development history of the science of logic, spoke about the life and activities of Lutfi Zadeh, and gave information about the Eurasian Academy, which Hamlet Isaxanli and Lutfi Zadeh co-founded along with others. He presented medals and certificates to the winners of the Olympiad.

## XƏZƏR UNİVERSİTETİNƏ "QIZIL PALMA" MÜKAFATI TƏQDİM EDİLDİ

Dekabrın 9-da "Boulevard Hotel"də İraq səfirliyi mükafatlandırma mərasimi keçirdi. Səfirliyin nümayəndəsi iraqlı tələbələrin Xəzər Universitetində uğurla ali təhsil aldıqlarını qeyd etdi. Bu münasibətlə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının şəxsində Xəzər Universitetinə "Qızıl Palma" mükafatı təqdim olundu.

## KHAZAR UNIVERSITY PRESENTED GOLDEN PALM AWARD

On December 9, the Embassy of Iraq held an awards ceremony at the Boulevard Hotel. A representative from the Embassy noted Khazar University's successes in the area of educating Iraqi students. In connection to this, the Embassy awarded the university a Golden Palm award via Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.












XƏZƏR UNİVERSİTETİNDƏ

# ŞAİR RAMİZ RÖVŞƏNLƏ GÖRÜŞ









Dekabrın 16-da Xəzər Universitetinin "Dünya" konsert zalında şair Ramiz Rövşənlə görüş keçirildi. Görüş şairin 70 illik yubileyinə həsr olunmuşdu. Tədbiri Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, şairin yaradıcılığından danışdı.

Sonra səhnəyə Ramiz Rövşən dəvət olundu. Şair məşhur şeirlərindən bir neçəsini söylədi. Əməkdar artistlər Mehriban Zəki, Vidadi Həsənov və müğənni Rövşən Nicat onun şeirlərinə bəstələnmiş mahnıları ifa etdilər.

Tədbirdə Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının müşaviri Nailəxanım İsayeva, Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Ramiz Rövşənin qohumları və dostları iştirak edirdilər.

PrimTime.Az xəbər saytı dekabrın 16-da tədbirlə bağlı xəbər yaymışdır:

*http://www.primetime.az/news,13596,2d387295/page,1/lang,az/*

CollegeBoard SAT

connect to college success™

# "DÜNYA" MƏKTƏBİNİN YENİ UĞURU

## "DÜNYA" MƏKTƏBİNDƏ SAT TEST MƏRKƏZİ AÇILDI

"Dünya" məktəbi artıq SAT imtahanlarının rəsmi şəkildə keçirildiyi mərkəzlərdən birinə çevrildi. Belə ki, SAT təşkilatının İB məktəbinə göndərdiyi məktubda 60144 təsdiq kodu verilir və bildirilir ki, məktəbdə SAT imtahanlarının təşkil olunmasına rəsmi şəkildə səlahiyyət verilir.

SAT dünyanın bir çox kollec və universitetlərində qəbul olunan standartlaşdırılmış test imtahanıdır. İmtahan riyaziyyat, tənqidi oxuma və yazı bölmələrindən ibarət olub şagirdlərin savadını, yazı, analitik və problem həll etmə bacarıqlarını qiymətləndirir.

SAT imtahanları ABŞ-da yerləşən "*College Board*" qeyri-hökumət təşkilatı tərəfindən idarə olunur.

"College Board" təşkilatının bildirdiyinə görə, "SAT imtahanları abituriyentlərin universitetə qəbul olması üçün ilk addım atmaqda yardım edir. Test mərkəzinə çevrilməklə, siz həm şagirdləri SAT, SAT Fənn testləri, həm də ali təhsilə hazırlıqla bağlı məlumatlandırmaq imkanı əldə edəcəksiniz."

"Dünya" məktəbində ilk imtahan 2017-ci il yanvarın 21-də keçiriləcək

## DUNYA IB SCHOOL BECOMES SAT TEST CENTER

Dunya IB School is now an authorized SAT Test Center! It received a letter from the College Board confirming that code 60144 was assigned to Dunya IB School allowing it to conduct SAT exams.

The SAT is a standardized test accepted by most colleges and universities worldwide. It consists of mathematics, critical reading and writing sections, and the SAT test has been designed to assess literacy and writing skills, analytical and problem-solving skills to reflect what students learned in high school.

The SAT is owned and published by the College Board, a private non–profit organization located in USA.

According to the College Board, "SAT test centers help students take that important first step on the road to college success. By becoming a test center, you will not only help connect motivated students to the SAT, SAT Subject Tests, and associated college planning resources, but will also expose more students overall to the opportunities of higher education."

The first SAT exam will be held on 21st of January, 2017 at Dunya IB School.



# "SÜLH ÜÇÜN" KOMANDASININ FƏLƏSTİN SƏFİRİ İLƏ GÖRÜŞÜ

Noyabrın 18-də Xəzər Universitetinin "Sülh üçün" komandası Fələstinin Azərbaycandakı səfiri cənab Nasser Abdel Kareem ilə görüşdü. Görüş Peer to Peer (P2P) layihəsinin "Ekstremizmə qarşı Mübarizə Proqramı" çərçivəsində təşkil olunmuşdu.

İştirakçılar səfir ilə müsahibə apararaq, ekstremizm və onunla bağlı maarifləndirmə yolları haqqında fikirlərini öyrəndilər. Səfir iştirakçıların suallarına cavab verdi və məsələ ilə bağlı öz fikirlərini bölüşdü. Sonra səfir iştirakçılara belə bir təşəbbüsə görə öz dərin təşəkkürünü bildirdi, onlara gələcək fəaliyyətlərində və proqramda iştiraklarında uğurlar arzuladı.

Peer to Peer (P2P) layihəsinin "Ekstremizmə qarşı Mübarizə Proqramı" ABŞ dövlət Departamenti tərəfindən dəstəklənən proqramdır.

Komandanın Facebook səhifəsinə bu link vasitəsilə daxil olmaq olar:

https://www.facebook.com/challengeextremismforpeace/?fref=ts.

# FOR PEACE TEAM MEETS WITH AMBASSADOR OF PALESTINE

On November 18, For Peace team members met with the Ambassador of Palestine to Azerbaijan, His Excellency Mr. Nasser Abdel Kareem. The meeting was organized as part of their participation in the P2P: Challenging Extremism Program.

Participants conducted an interview with the ambassador to learn about his opinion on extremism and how we can build awareness about it. The ambassador answered the team's questions and shared his knowledge on this matter. His Excellency Mr. Nasser Abdel Kareem thanked the team for their initiative and wished them good luck in their future activities and participation in the program.

The For Peace team is participating in the P2P: Challenging Extremism Program, a global university youth initiative and an international competition supported by the U.S. Department of State.

More information is available on the team's Facebook page:

https://www.facebook.com/challengeextremismforpeace/?fref=ts

# "XƏZƏR"İN MƏRHUM MƏZUNU MEDİADA ANILDI

2016-cı il noyabrın 27-də Müstəqil.az xəbər saytı Xəzər Universitetinin məzunu, həyatdan çox erkən köçmüş gənc yazar Zərdüşt Şəfiyə həsr olunmuş yazını paylaşmışdır.

Yazını tam şəkildə bu link vasitəsilə oxumaq olar:

http://www.mustaqil.az/2016/11/27/bir-uzaq-mesədə-unudun-məni/.





## "GƏLƏCƏKDƏ MƏN" ADLI PSİXOLOJİ TƏLİM

Noyabrın 19-da gənclərin şəxsi İnkişaf mərkəzi olan Müasir Gənclər Klubu və Xəzər Universiteti Tələbə Məclisinin birgə əməkdaşlığı ilə Xəzər Universitetində psixoloq Vəfa Əkbərin rəhbərliyi ilə "Gələcəkdə mən" adlı psixoloji təlim təşkil olundu. Təlimdə "Mən kiməm?", "Mənim potensialım", "Potensialı üzə çıxartma", "Gələcəkdə mən" mövzuları müzakirə olundu.

Təlimdə Xəzər Universitetinin tələbələri ilə yanaşı, digər tələbələr də olmaqla, 50-yə yaxın iştirakçı var idi. Müasir Gənclər Klubu ilə gələcəkdə də bu cür təlim və seminarların davamı olacaq

## "FUTURE ME" PSYCHOLOGICAL TRAINING

On November 19, an event called "Future Me" was held at Khazar University with the leadership of psychologist Vafa Akbar and the joint coordination of Center for Individual Development of Youth, Modern Youth Club, and Khazar University. The seminar included topics such as "Who am I?", "My potential," "Bringing out your potential," and "Future me."

The seminar participants included nearly 50 students from Khazar University and other universities. Modern Youth Club plans to continue holding these types of events.

## TƏLƏBƏ MƏCLİSİ "DANCE CLUB" TƏŞKİL EDİR

Xəzər Universiteti Tələbə Məclisinin təşkilatçılığı ilə hər həftənin şənbə günləri "Dance Club" öz fəaliyyətini davam etdirir. Tələbələrə tam ödənişsiz şəkildə təqdim olunan bu xidmətdən indiyədək 100-dən çox tələbə yararlanmışdır. Hələlik, sadəcə Latın-Amerika rəqslərinin öyrədildiyi "Dance Club"- da gələcəkdə başqa janrda da rəqslər olacaq. Onu da qeyd edək ki, dərslərdə fəal iştirak edən tələbələr 2017-ci ilin aprel ayında Azərbaycan Respublikası İdman və Gənclər Nazirliyi tərəfindən təşkil olunan tələbələrarası rəqs yarışmasında iştirak haqqı qazanacaqlar.

## STUDENT UNION DANCE CLUB

The Khazar University Student Union organizes a Dance Club every Saturday. More than 100 students have participated in this free activity. The club has been learning Latin American dances and plans to expand to other genres in the future. We note that students who actively participate in these dance classes will be invited to participate in an intramural dance competition in April coordinated by the Ministry of Youth and Sports of the Azerbaijan Republic.

## BP-NİN ƏMƏKDAŞLARI "XƏZƏR"DƏ

Noyabrın 23-də "British Petroleum" (BP) şirkəti ilə Xəzər Universitetinin tələbələri arasında görüş keçirildi. Neft mühəndisliyi, mexanika mühəndisliyi, inşaat mühəndisliyi və maliyyə ixtisasları üzrə təhsil alan tələbələr bu görüşdə iştirak etdilər. Görüşdə şirkətin əməkdaşı Mehriban Şıxzamanova BP haqqında ümumi məlumat verdi və təcrübə proqramı mövzularına toxundu. Bundan əlavə, Xəzər Universitetinin məzunu olan və hazırda BP şirkətində çalışan Zümrüd Aslanova öz təcrübə və təəssüratlarını tələbələrlə bölüşdü.

Sonda tələbələrin sualları cavablandırıldı

Bu haqda tehsil-press İnformasiya Agentliyinin rəsmi internet səhifəsində də xəbər yayılmışdır. Xəbəri bu link vasitəsilə oxumaq olar:

http://tehsil-press.az/index.php?newsid=15254.






## BP EMPLOYEES VISIT KHAZAR

On November 23, employees of British Petroleum (BP) met with Khazar University students majoring in Petroleum Engineering, Mechanical Engineering, Civil Engineering and Finance. During the meeting, Mehriban Shikhzamanova informed the students about BP and its internship programs. In addition, Zumrud Aslanova, a Khazar University alumna currently working at BP, shared her experiences and impressions.

At the end of the event, the representatives answered students' questions.

An article about the meeting was published on the tehsil-press website. The full text of the article is available at the following link:

http://tehsil-press.az/index.php?newsid=15254.

## TƏLƏBƏ JURNALİSTLƏR KOMANDASI YARADILIR

Noyabrın 28-də Xəzər Universitetinin Xəbər-News Qrupu Mühəndislik və tətbiqi elmlər, İqtisadiyyat və menecment, Humanitar və sosial elmlər fakültələrinin könüllülərindən ibarət yaranmaqda olan Tələbə jurnalistlər komandasının üzvləri ilə ilk iclas keçirdi.

İclası Xəbər-News Qrupunun rəhbəri, "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev açaraq bildirdi ki, Tələbə jurnalistlər komandası universitet rəhbərliyinin tövsiyəsi ilə yaradılır və məqsəd universitetdə keçirilən tədbirlər haqqında xəbərlərin hazırlanmasında operativliyi artırmaqdan ibarətdir.

Xəbər-News Qrupunun üzvləri – Jurnalistika departamentinin koordinatoru Cabir Məmmədov, "Xəzər Xəbər" jurnalında ingilis dilində mətnlərin redaktoru Marta Lauri və Elektron media mərkəzinin direktoru Alik Əlioğlu çıxış edərək, komandanın nəzərdə tutulan iş prinsiplərindən danışdılar və komanda üzvləri üçün treninqlərin keçirilməsi qərara alındı.

Sonda komanda üzvlərinə müvafiq sənədlər paylandı və suallar cavablandırıldı.

## İQTİSADİYYAT VƏ MENECMENT DEPARTAMENTİNİN MÜDİRİ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜ

Noyabrın 21-i və 23-də Xəzər Universiteti İqtisadiyyat və menecment departamentinin müdiri Dr. Ceyhun Məmmədov 3-cü kurs bakalavr tələbələri ilə görüş keçirdi. O, tələbələri yeni tədris planı haqqında məlumatlandıraraq, yaz semestrində seçiləcək fənlərlə əlaqədar onlara məsləhətlər verdi. Bundan əlavə, yayda ixtisaslarına uyğun olaraq təcrübəyə göndəriləcəkləri haqqında məlumat verildi.

Görüş sual-cavab sessiyası ilə yekunlaşdı.

## MEETING WITH HEAD OF ECONOMICS AND MANAGEMENT DEPARTMENT

On November 21 and 23, Head of the Economics and Management Department Dr. Jeyhun Mammadov held a meeting with 3rd year bachelor students. He provided detailed information about new curriculum and gave crucial advice on course selection for the spring semester. Furthermore, students were informed about the details of compulsory summer internship.

The meeting ended with a question-and-answer session.

## MÜƏLLİMİMİZ TÜRKİYƏDƏ BEYNƏLXALQ ELMİ TƏDBİRLƏRDƏ İŞTİRAK ETMİŞDİR

Noyabrın 23 - 24-də Xəzər UniversitetiTarix və arxeologiya departamentinin müəllimi Araz Aslanlı türkiyənin istanbul şəhərində keçirilən iki konfransda məruzə ilə çıxış etmişdir.

A. Aslanlı əvvəlcə Marmara Universitetində "Cənubi Qafqazdakı son proseslər və Qarabağ problemi" adlı məruzə ilə çıxış etmişdir. Məruzədə Qarabağ probleminin yaranmasının və həll olunmadan qalmasının səbəbləri izah edilmiş, eləcə də, Qarabağ probleminin həll olunmamasının Azərbaycan, region və dünya üçün yaratdığı mənfi nəticələr və risklər barədə məlumat verilmişdir.

Noyabrın 24-də A. Aslanlı İstanbul Şehir Universitetində keçirilən "Avrasiyanın Balkanları –Qafqaz regionunda güc savaşları" adlı konfransda məruzə ilə çıxış etmişdir. Məruzədə Qafqaz regionunun qlobal və regional güclər üçün əhəmiyyəti, region uğrundakı tarixi rəqabət və hazırda gedən proseslər izah edilmişdir.

Məruzələrdən sonra iştirakçıların sualları cavablandırılmışdır.

## KHAZAR UNIVERSITY INSTRUCTOR PARTICIPATES IN INTERNATIONAL SCHOLARLY EVENTS

On November 23-24, Araz Aslanli, instructor for Khazar University Department of History and Archeology, gave lectures at two conferences held in Istanbul, Turkey.

Araz Aslanli gave his first lecture on "Recent Processes in the South Caucasus and the Karabakh Problem" at Marmara University. He explained the causes of the Karabakh problem and reasons why it remains unresolved, including the negative consequences and risks it creates for Azerbaijan, the region and the world. After the lecture, he answered the audience's questions.

On November 24, Araz Aslanli gave a presentation in the "Balkans of Eurasia: Power Wars in the Caucasus Region" Conference in Istanbul Sehir University. The lecture covered the significance of the Caucasus region for global and regional powers, historical competition over the region, and currently unfolding processes. After the lecture, he answered participants' questions.





# AMEA-NIN ƏMƏKDAŞI İLƏ GÖRÜŞ

Noyabrın 24-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin təşəbbüsü ilə Təhsil fakültəsi tarix ixtisasının I və II kurs tələbələri ilə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, paleolit dövrü üzrə tanınmış arxeoloq Azad Zeynalovun görüşü keçirildi. Görüş zamanı Azərbaycanın paleolit dövrünün tədqiqi tarixi, abidələr və tapıntılar haqqında maraqlı elmi mühazirə oxunmuş və gənc tarixçiləri maraqlandıran bir sıra məsələlərə aydınlıq gətirilmişdir.

Görüşdə Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi Xatirə Yusifova və Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanov da iştirak etmişlər.

Tələbələrə Azərbaycanda aparılmış son elmi tədqiqatlar və qazıntılar haqqında da ətraflı məlumat verilmişdir

# ANAS ARCHEOLOGIST MEETS WITH STUDENTS

On November 24, Dr. Azad Zeynalov, well-known archeologist of the Paleolithic age and researcher of the Azerbaijan National Academy of Sciences' Institute of Archeology and Ethnography, met with first-and second-year students of the School of Education upon the initiative of the Department of History and Archeology. During the meeting, the guest taught the young historians about the history of research in Azerbaijan on the Paleolithic age, gave a lecture on monuments and archeological finds, and answered students' questions. Khatira Yusifova, instructor for the Department of Azerbaijani Language and Literature, and Orkhan Zamanov, instructor for the Department of History and Archeology, also participated in the meeting.

The students were also given information about recent scientific research and archeological excavations in Azerbaijan.



# XƏZƏR UNİVERSİTETİNİN DOKTORANTI ELMİ İŞİNİ MÜDAFİƏ ETDİ

Noyabrın 25-də AMEA Fəlsəfə İnstitutunun nəzdindəki Dissertasiya Şurasında Xəzər Universitetinin doktorantı Xəyalə Məmmədovanın "Azərbaycan cəmiyyətinin sosial-mədəni inkişafının gender aspektləri" mövzusundakı dissertasiya işinin fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün müdafiəsi keçirildi.

AMEA Fəlsəfə İnstitutunun direktoru professor İlham Məmmədzadənin rəhbərliyi ilə keçirilən iclasda X. Məmmədovanın təqdimatından sonra şura üzvlərinin sualları cavablandırıldı.

Dissertasiya şurası aparıcı təşkilatın, rəsmi opponentlərin, ayrı-ayrı alimlərin dissertasiya və onun avtoreferatı haqqında rəylərini, elmi iş üzrə yerli və xarici elmi jurnallarda çap olunmuş məqalələri, dissertasiya işinin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə cavab verdiyini nəzərə alaraq, iddiaçının fəlsəfə doktoru elmi dərəcəsi almağa layiq olması haqqında qərar qəbul etdi.

# KHAZAR UNIVERSITY STUDENT DEFENDS PHD DISSERTATION

On November 25, Khayala Mammadova, Khazar University PhD student, defended her dissertation on "Gender Aspects in Sociocultural Development in the Azerbaijani Society" before the Dissertation Council in affiliation with the Azerbaijan National Academy of Sciences' Philosophy Institute.

Professor Ilham Mammadzadeh, Director of Azerbaijan National Academy of Sciences' Philosophy Institute, chaired the defense, which included a presentation by Khayala Mammadova and then a question-and-answer session.

The council and official opponents discussed the dissertation and its reviews as well as the articles that Mammadova has published in local and international scholarly journals and her other works. Taking into account the requirements of the Higher Attestation Commission of the President of the Azerbaijan Republic, they recommended Khayala Mammadova for a doctor of philosophy degree in Social Philosophy.

# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNDƏ ELMİ SÖHBƏT

Noyabrın 25-də Xəzər Universiteti Tarix və arxeologiya departamentində departamentin müdiri Roza Arazova və müəllimi Orxan Zamanovun təşəbbüsü ilə ABŞ-ın Nyu-York ştatı Roçester Universitetinin professoru Michael Jarvisin, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun və Xəzər Universitetinin əməkdaşlarının iştirakı ilə dəyirmi masa ətrafında elmi seminar təşkil olundu.

Seminar arxeologiyanın və tarixin öyrənilməsində, tədrisində və tətbiqində rəqəmli texnologiyaların tətbiqi ilə əlaqədar keçirilirdi. Tədbirdə Xəzər Universitetinin Məzunlarla iş üzrə koordinatoru Baba Bayramlı, İnternet İnstitutunun direktoru Məhəmməd Şərifov Karyera inkişaf mərkəzinin koordinatoru Ülviyyə Hüseynova və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı Namiq Hüseynli iştirak edirdilər.

Görüşün sonuna yaxın Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs seminara qoşuldu. İngilis dilində keçən seminarda maraqlı təqdimat və müzakirələr oldu.



# MEETING IN KHAZAR UNIVERSITY DEPARTMENT OF HISTORY AND ARCHEOLOGY

On November 25, Dr. Roza Arazova and Orkhan Zamanov organized a scholarly roundtable discussion with Professor Michael Jarvis of Rochester University (New York, USA) with Khazar University faculty members. The seminar covered applications of digital technology in the teaching and learning of archeology and history. Participants included Ulviyya Huseynova, Coordinator of the Khazar University Career Center; Baba Bayramli, Director of the Center for Alumni Relations; Mahammad Sharifov, Director of the Internet Institute; and Namiq Huseynli of the ANAS Archeology and Ethnography Institute.

Dr. Hasan Niknafs, President of the University, also joined the seminar. The event was held in English and included an interesting presentation and discussions.



## ERASMUS+ PROQRAMI İLƏ BAĞLI İKİNCİ GÖRÜŞ

Noyabrın 25-də Xəzər Universitetinin ERASMUS+ layihəsi üzrə komandası yeni ideyalar və imkanları müzakirə etmək üçün görüşdü. Altı yeni layihə ideyası müzakirə olundu və tapşırıqlar komanda üzvləri arasında bölündü. Görüşdə layihə yazılması ilə bağlı işləri, habelə, partnyorlarla yazışma prosesini sürətləndirilmək üçün İnkişaf mərkəzini mütəmadi olaraq işlərin gedişi ilə bağlı məlumatlandırmaq qərara alındı.

## ERASMUS + 2ND MEETING

On November 25, the Khazar University ERASMUS + project writing team held a meeting to discuss new project ideas and other opportunities within the ERASMUS+ Program. Six new project ideas were discussed and tasks were divided among team members. It was also decided that team members will accelerate the speed of project proposal development as well as communication with partners and report back to the Development Office on their progress.

## GƏNC MÜHƏNDİSLƏR BETON ZAVODUNDA

Noyabrın 26-da Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsi inşaat mühəndisliyi ixtisasının tələbələri bir günlük "AS İnşaat" beton zavodunda ekskursiyada oldular. Həmin gün zavodun ümumi iş prinsipi, avadanlıq, texnika, betonun hazırlanmasında istifadə olunan materiallarla və laboratoriya ilə ətraflı tanış oldular. İstehsalat şəraitində müxtəlif markalı betonların tərkibinin layihələndirilməsi prinsipini öyrəndilər.



## AEGEE BAKI "SPELLING BEE" LAYİHƏSİNİN SON MƏRHƏLƏSİ

Noyabrın 26-da AEGEE-Bakı (Avropa Tələbələr Forumu Bakı İctimai Birliyi) Dillər işçi qrupu tərəfindən təşkil olunan "Spelling Bee" layihəsi "Headway Language & Development"-in əməkdaşlığı ilə birlikdə Xəzər Universitetində son mərhələsini keçirdi.

Noyabrın 19-da treyninq zamanı layihə barədə iştirakçılara məlumat verilmişdi. Noyabrın 26-da isə seçilmiş iştirakçılar fərdi şəkildə yarışaraq, 1-ci yer uğrunda mübarizə apardılar. Günün sonunda ilk 3 yerin qalibi "Headway Language & Development" tərəfindən xüsusi hədiyyələrlə mükafatlandırıldı. 1-ci yerin qalibi isə əlavə olaraq "Headway Language & Development"-dən 100 manatlıq təhsil kuponu əldə etdi.

## FINAL ROUND OF SPELLING BEE PROJECT

On November 26, the final round of the Spelling Bee project organized by a working group for languages at AEGEE-Baku (European Student Forums Baku Public Union) in partnership with Headway Language & Development was held at Khazar University.

On November 19, information about the project was given to the participants during a training event. On November 26, selected participants competed individually for first place in the competition. At the end of the day, Headway Language & Development awarded prizes to the top three winners. The first place winner was awarded an educational voucher worth 100 manat from Headway Language & Development.

## "BAKER TILLY" İLƏ GÖRÜŞ KEÇİRİLDİ

Noyabrın 28-də Xəzər Universitetinin Karyera inkişaf mərkəzi "Baker Tilly" Audit Şirkətinin nümayəndəsi və Xəzər Universitetinin məzunu Ramil Bədəlovla görüş keçirdi. Görüşün məqsədi şirkətlə əməkdaşlıq etmək və bu sahədə imkanları genişləndirmək idi. "Baker Tilly"-nin nümayəndəsi tələbələrlə işləməkdən zövq aldıqlarını və bundan sonra da öz şirkətlərində Xəzər Universitetinin daha çox tələbəsi ilə işləmək istədiklərini bildirdi.

Görüşdə Karyera Sərgisi haqqında da müzakirələr aparıldı və sponsorluq təklifinin dəyərləndiriləcəyi bildirildi. "Baker Tilly"-nin nümayəndəsi vakansiya və ya təcrübə elanlarını ilk olaraq Karyera inkişaf mərkəzi ilə bölüşəcəklərini və əməkdaşlıq əlaqələrini daha da genişləndirəcəklərini vurğuladı.

## MEETING WITH BAKER TILLY

On November 28, the Khazar University Career Development Center held a meeting with Ramil Badalov, representative of Baker Tilly auditing company and Khazar University alumnus. The objective of the meeting was to establish partnership with the Career Development Center and broaden opportunities in this area. The guest noted that it was a pleasure to work with Khazar University students and that he would like to work with more Khazar University students in his company in the future.

During the meeting, the activities of the Career Center and possible sponsorship possibilities were also discussed. The representative promised to share vacancy notices and internship announcements with Khazar University Career Development Center first as well as to further develop partnership in these areas.

## TƏLƏBƏMİZİN ŞEİR TƏQDİMATI

Noyabrın 25-də Xəzər Universitetində Humanitar və sosial elmlər fakültəsinin 1-ci kurs tələbəsi Yaqub Teymurov şeirlərini musiqinin müşayiəti ilə tələbə dostlarına təqdim etdi.

Universitetin müəllimi, tədbirin qonağı olan fəlsəfə doktoru Mail Yaqubov klassik Azərbaycan ədəbiyyatından bir neçə şeir söylədi.

Tədbirdə poeziya haqqında söhbət açıldı, tələbələrin sualları cavablandırıldı.







## ƏMƏKDAŞLARIMIZ "MİLLA" ŞİRKƏTİNİN BAŞ MENECERİ İLƏ GÖRÜŞDÜLƏR

Noyabrın 28-də Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Hassan Niknafs və Kimya departamentinin koordinatoru Rəsul Muradi "Milla" şirkətinin baş meneceri Filip Raytla görüşdülər. Görüşün məqsədi "Milla" şirkəti ilə əməkdaşlıq etmək və bu sahədə imkanları genişləndirmək idi.

Kimya mühəndisliyi tələbələrinin zavodun bioreaktor, istilikdəyişdirici və ayırma, Mexanika mühəndisliyi tələbələrinin ekstrüderlər və qəlibə salınma təchizatları ilə tanış olması məqsədilə zavoda bir günlük ekskursiyanın təşkil olunmasına dair razılıq əldə edildi. Bundan əlavə, Kimya mühəndisliyi ixtisasında təhsil alan tələbələrin "Milla" şirkətində yay təcrübəsi keçməsinə və şirkətin tədqiqat və inkişaf menecerinin Xəzər Universitetində seminarının təşkil edilməsinə dair qərar qəbul olundu. Gələcəkdə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi vurğulandı.

## ACTING DEAN OF SCHOOL OF ENGINEERING AND APPLIED SCIENCES MEETS WITH HEAD MANAGER OF MILLA

On November 28, Hassan Niknafs, Acting Dean of School of Engineering and Applied Sciences and Rasul Muradi, Coordinator of the Chemistry Department, met with Phil Wright, Head Manager of the Milla Company. The objective of the meeting was to establish partnership with Milla and broaden possibilities in this sphere.

The Khazar representatives obtained permission to bring chemistry students on a one-day tour of the Milla plant so they could observe equipment like the bioreactor and heat exchanger as well as to bring mechanical engineering students to the plant so they could observe the processes of extrusion and casting. In addition, plans were made for chemical engineering majors to come for summer internships at Milla and for and plant's R&D manager to give seminars at Khazar University. The importance of continuing to develop this partnership was emphasized.



**“XƏZƏR XƏBƏR”İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU**

# ƏDƏBİYYAT İNSTİTUTUNA BİBLİOQRAFİYALAR HƏDİYYƏ EDİLİB

Dekabrın 7-də Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda Azərbaycan Milli Kitabxanası tərəfindən son 10 ildə çap olunan biblioqrafiyaların bu elmi-tədqiqat müəssisəsinə hədiyyə edilməsi mərasimi keçirilib.

Ədəbiyyat İnstitutuna təqdim olunan 42 adda 168 nüsxə biblioqrafiyalar Azərbaycanın görkəmli şəxsiyyətləri seriyasından çap olunan N.Gəncəvi, Ü.Hacıbəyov, İ.Əfəndiyev, Q.Qarayev, S.Vurğun, B.Vahabzadə, Elçin və digər fundamental biblioqrafiyalar, eyni zamanda elmin, mədəniyyətin və digər sahələrə aid olan sahəvi və şəxsi biblioqrafiyalardır.

Giriş sözü ilə tədbiri açan AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Azərbaycan Milli Kitabxanasının son illərdə həyata keçirdiyi əhəmiyyətli layihələrdən, elmin, mədəniyyətin tədqiqində əvəzsiz rol oynayan fundamental biblioqrafiyaların çapının əhəmiyyətindən, kitabxananın ölkənin ictimai həyatında fəal iştirak etməsindən, Azərbaycan ədəbiyyatı və mədəniyyətinin, mənəvi dəyərlərinin təbliğində xüsusi rol oynamasından, Azərbaycan hə-qiqətlərini dünyada təbliğ etməsindən, hər il 10 beynəlxalq kitab sərgi yarmarkalarında iştirak edərək Azərbaycanın tarixini, mədəniyyətini, ədəbiyyatını, incəsənətini, mətbəxini və s. təbliğ etməsindən danışıb. Akademik İsa Həbibbəyli bu biblioqrafiyaların ədəbiyyatın təbliğində və tədqiqində böyük rol oynayacağını bildirib.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov Milli Kitabxananın fəaliyyətinə verilən qiymətə görə təşəkkürünü bildirib. Nizami adına Ədəbiyyat İnstitutu ilə əməkdaşlığın gələcəkdə daha geniş profildə davam etdirmə zərurətini bildirib.



# "DÜNYA"DA BİLİK YARIŞI KEÇİRİLDİ

# KNOWLEDGE COMPETITION IN DUNYA SCHOOL

Noyabrın 26-da "Dünya" məktəbində istedadlı şagirdlərin müəyyən edilməsi, onların üzə çıxarılması, elmə həvəs və maraqlarının artırılması məqsədilə bilik olimpiadası keçirildi. Olimpiada bütün fənlər üzrə VI-IX sinif şagirdləri arasında məktəbdaxili təşkil olunmuşdu. Olimpiadada Sumqayıt "Dünya" məktəbinin şagirdləri də daxil olmaqla ümumilikdə 137 nəfər iştirak edirdi.

Noyabrın 30-da olimpiadanın nəticələri açıqlanaraq, qaliblər xüsusi diplomlarla təltif olundular.

On November 26, 2016, a knowledge competition was held in Khazar University's affiliate Dunya School to discover talented students and increase their motivation and interest in science. This competition was held as an Olympiad in all subjects for grades 6 to 9. Pupils from the new Dunya School in Sumgayit also participated. A total of 137 pupils participated.

On November 30th, the results of the Olympiad were announced and winners were given special certificates.







# SUMQAYIT "DÜNYA" MƏKTƏBİ MƏDƏNİYYƏT FESTİVALI KEÇİRİR

Dekabrın 10-da Sumqayıt "Dünya" məktəbinin Sumqayıt şəhərində həyata keçirdiyi elm və mədəniyyətin inkişafı layihəsi çərçivəsində Sumqayıt Məktəblilərinin Mədəniyyət Festivalının ilkin mərhələsi oldu. Bu mərhələdə bədii qiraət, rəsm-sənət, şahmat, vokal, rəqs müsabiqələri keçirildi. Müsabiqələrdə ümumilikdə şəhərdəki 50 məktəbin 48-dən 513 nəfər şagird, 400-dən çox valideyn və müəllim iştirak edirdilər. Münsiflər heyəti Xəzər Universiteti və "Dünya" məktəbinin peşəkar müəllim və mütəxəssislərindən təşkil olunmuşdu.

Festivalı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, tədbirin əhəmiyyətindən danışdı, iştirakçılara uğurlar arzuladı.

Gərgin keçən yarışmalardan sonra Münsiflər heyətinin qərarı ilə 5 nominasiya üzrə 147 nəfər şagird yanvarın 28-də keçiriləcək ikinci mərhələdə iştirak etmək hüququ qazandı.

Tədbirdə "Dünya" məktəbinin həmtəsisçisi, Xəzər Universiteti Dirktorlar və Qəyyumlar Şurasının müşaviri Nailəxanım İsayeva, universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Sumqayıt Təhsil Şöbəsinin baş metodisti İlham Mirzəliyev, Sumqayıt "Dünya" məktəbinin direktoru Münəvər Bayramlı iştirak edirdilər.









# SUMGAYIT BRANCH OF DUNYA SCHOOL HOLDS CULTURAL FESTIVAL

On December 10, the Sumgayit branch of Dunya School held the first round of a Cultural Festival in the city of Sumgayit. This round included competitions in the categories of dramatic reading, drawing, chess, singing, and dance. A total of 513 school children from 48 of the 50 schools in Sumgayit participated in the Festival, along with over 400 parents and teachers. The panel of judges was made up of professionals, instructors and specialists from Khazar University and Dunya School.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, opened the event, spoke about its significance and wished the participants success.

After intense competitions, the panel of judges awarded 147 participants across 5 categories the right to participate in the second round of the Festival, which will be held on January 28.

Participants in the event included Nailakhanim Isayeva, co-founder of Dunya School as well as Advisor to the Khazar University Board of Directors and Trustees; Alovsat Amirbeyli, Director for Public Relations and Media; Ilham Mirzaliyev, Head Methodologist of the Sumgayit Department of Education; and Munavar Bayramli, Director of the Sumgayit branch of Dunya School.










# "ELM ŞƏNLİYİ"NDƏ YARIŞACAQ TƏLƏBƏ KOMANDALARI İLƏ TANIŞLIQ

Noyabrın 28-də AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi ekspozisiya şöbəsinin İçərişəhərdəki Arxeologiya muzeyində Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun maliyyələşdirdiyi və Xəzər Universitetinin tərəfdaşlıq etdiyi "Elm şənliyi" layihəsinin ilk tədbiri keçirilmişdir. Tədbir "Elm Şənliyi" layihəsi üzrə nəzərdə tutulmuş elmi-populyar müsabiqənin müxtəlif ali təhsil məktəblərinin tələbələrindən təşkil edilən yarış komandaları ilə ilkin tanışlıq məqsədi daşıyırdı.

Layihə rəhbəri, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı Orxan Zamanov layihə haqqında qısa məlumat verdikdən sonra sözü layihənin koordinatoru olan arxeoloq Pərviz Qasımova verdi.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı Pərviz Qasımov əvvəlcə layihənin əsas məqsədi haqqında iştirakçıları məlumatlandırdı. Sonra iştirakçıları Arxeologiya muzeyindəki Azərbaycan arxeoloji irsini əks etdirən eksponatlarla tanış etdi. Ekskursiya əsnasında o, iştirakçılara arxeoloji materialların Azərbaycan xalqının qədimliyinin öyrənilməsində rolu, dövrləşdirmə, analiz metodları və s. haqqında məlumat verdi.

Muzeylə tanışlıqdan sonra içtirakçılara "Elm Şənliyi" layihəsinin yarımfinal və final mərhələsi haqqında məlumat verildi.





# STUDENT TEAMS PREPARE FOR "SCIENCE PARTY"

On November 28, the first event was held as part of the Science Party project, which is organized with the support of the Youth Foundation of the President of the Azerbaijan Republic and partnership of Khazar University. The event was held in the Archeology Museum in Icherisheher run by the Exposition Division of the Archeology and Ethnography Institute of the Azerbaijan National Academy of Sciences. The event was meant to introduce university students to the Science Party project, which will involve student teams from various universities in a competition. Orkhan Zamanov, the project manager and employee of the ANAS Archology and Ethnography Institute, gave brief information about the project and then passed the floor to Parviz Gasimov, project coordinator.

Parviz Gasimov, project coordinator and employee of the ANAS Archology and Ethnography Institute, gave background information about the project's main objectives. Then he led participants on a tour of exhibits showing Azerbaijan's archeological heritage in the Archeology Museum. He gave them detailed information about the role of archeological materials in the study of the history of Azerbaijan's ancient people, new archeological research, analytical methods, and more.

After the tour, participants were given information about the semifinal and final rounds of the Science Party project.



# YOLUM VAR KÖNÜL EVİNƏ...

***Əməkdar elm xadimi, Camal Mustafayevə - Camal Dədəyə məktub***

*"Ədəbiyyat qəzeti"nin 3 dekabr 2016-cı il tarixli nömrəsində şair, yazıçı, publisist, "Kredo" qəzetinin baş redaktoru Əli Rza Xələflinin görkəmli filosof-alim, Xəzər Universitetinin professoru Camal Mustafayevə mənzum məktubu dərc olunmuşdur. Həmin məktubu oxucularımıza təqdim edirik.*

**Əli Rza Xələfli**

Salam, Camal Dədə, uğurun xeyir,
Açılan hər səhər üzünə gülsün.
Dumanlar çəkilir, dağlar baş əyir,
Günəşli gündüzlər gözünə gülsün.

Can içində cansan - min canın səsi,
Sinəndə bir xalqın qəlbi döyünür...
İdrak dağlarının ağıl zirvəsi
Adınla məmləkət, millət öyünür.

Haq mənəm, haq məndə - deyən Nəsimi
Ruhunu əmanət eyləyib sənə.
Sənin varlığında sazın hər simi
Həqiqət yoludur haqdan küsənə.

* * *

Hər şey keçəridi - ömür də, yaş da,
Zaman dişə çəkib yeyib gedəcək.
Qızıldan olsa da divar da, daş da,
Sözə, sənətkara təzim edəcək.

Sözün sirlərini açdıqca bir-bir,
Mənalar çiçəkli çəmənə dönür.
Məsləkin saflığı Babəklə gəlir,
Nəsimi qürurla Vətənə dönür.

Tamah istəyəni dünya versə də,
Zaman küləkləri sovurub alar.
Şöhrət bağçasından güllər dərsə də,
Hikmət sahibindən bircə söz qalar.

Zaman qucaq açar sözə, hikmətə,
Sözdən qeyri daha nə var qalası?
Sözündə ucalan çatar hörmətə
Əbədi yaşayar fikir qalası.

* * *

"Qalib gələcəkmi cahanda kamal"
Suallar, cavablar ağ yol çəkəcək.
Həqiqət, ləyaqət olmasa amal,
Bəşərin ruhuna zülmət çökəcək.

Dünya tufanından salamat çıxar,
Nuhun gəmisidir sənin varlığın.
Şəri məğlub edər, ölümü yıxar,
Kimin taleyində olsa yarlığın.

Bədxahlar əliylə daşlanan yolum,
Qəzəb qılıncını çaxar cahana.
Ölümlərdən keçib yaşayan olum,
Sənin gözlərinlə baxar cahana.



Nə yaxşı dünyada sən varsan, Dədə,
Dədələr olmasa günəş də sönər.
Yaxşılar əbədi qalsa kölgədə,
Dünya qaranlığa, zülmətə dönər.

İblislər, şeytanlar yığışıb gələ,
Zəka işığını söndürə bilməz.
Əhrimən oynaya, iblislər gülə
Hörmüzü yolundan döndərə bilməz.

* * *

Dırnağı möhkəmdi murad atının,
Neçə bələn keçib, yol aşar hələ.
Çəksən yüyənindən kür bayatının
Məna sahillərə söz daşar hələ.

Ağ qaya başında yollara baxan,
Çimir də eləmir Koroğlu gözün.
Kəsir qabağını urvatdan çıxan
Yalan bazarına daşınan sözün.

Nəiminin izi ilə yol açıb,
Bizi aparırsan könül evinə.
İrfan bulağından ruhumuz içib,
Duyğular tellənə, dillər sevinə.

İrfan ocağından hünər, güc alan
Sönməyən atəşlə, odla yanırsan.
Piranlıq üstündə qalxan, ucalan,
Qürur heykəlisən, mərd dayanırsan.

Fikir ustadısan - düşüncələri
Hazır həblər kimi sözə yığırsan.
Söküb düyünləri, düyünçələri,
Açıb kitab-kitab gözə yığırsan.

Sən Yunis İmrəsən - məclislər başı,
Mən nəfəs almışam buğda dilindən.
Könülsüz dərvişəm - könlüm dərd daşı
Cam alıb içmişəm sənin əlindən.

Döyənə əlsizlik - söylədin, Dədə,
Söyənə dilsizlik cavabdı - dedin.
Dedin cavab olmaz hədəyə hədə,
Dedin ki, insana təmkin öyrədin.

Müqəddəs ruhların könül sirdaşı,
Bir yığnaq yerisən - haylı, haraylı.
Adınla başlanır hər sətir başı
Nizami evlisən, Rumi saraylı.

* * *

Dədə Camal adı çiçəkli bağdı,
Gülünü soldurmaz fəsillər, aylar.
Ucadan ucadı - zirvədi, dağdı,
Sinəsi çağlayan bulaqlar, çaylar.

Aşiqə məhəbbət, sevgi də dindi,
Hərəsi bir kitab, qoldu bilənə.
Bu yerdə hər kəlmə danışdı, dindi,
Dədə Camal özü yoldu bilənə.

Yatmaz, yuxusundan, yatından keçər,
Hər sözün, mənanın qatından keçər.
Fikir laylarının altından keçər,
Kəhrizdi, kankandı, doldu bilənə.

Doğudan Batıya atı qanadlı,
Türkün yatağanı - adı qan adlı.
Olanı, olmazı, varı can adlı,
Yurdu Qarayazı - çöldü bilənə.

* * *

Sinəsi qızara güllə, çiçəklə,
Sözün mənasıdı dünyanın tamı.
Dədə varlığında sonsuz istəklə,
Eşqin cazibəsi çəkir adamı.

* * *

Zamanın mürşidi, şeyxisən özün,
Ariflər könlüdü evin, sarayın.
Odsuza od verər ocağın, közün,
Vulkan yatağıdı hər fikir layın.

"Tarixi-fəlsəfi araşdırmalar",
Dədəlik qeyrəti, zəka hünəri.
Zamandan zamana yadigar qalar
Fikir dəryasının mirvariləri.

Suallar tarixdən, cavablar səndən,
Müdriklərin ruhu, yaddaş səsisən.
Böyük İpək yolu keçir sinəndən,
Dünyanın mənəvi xəritəsisən.

Sənin söz bağında qönçə bağlayar,
Mövlanə sözünün çiçəyi, gülü.
Güllər açılmasa, sinə dağlayar
Könüllər bağının şeyda bülbülü.

Camallıq payına işıq da, nur da,
Adlar da ilahi qüdrətdən gəlir.
Deyirəm bu sonsuz güc də, qürur da
Hikmətə sevgidən, heyrətdən gəlir.

* * *

Sənin hər kitabın fikir ölkəsi,
Paytaxtı, şəhəri, xiyabanı var.
Səni qorxutmasın yaşın kölgəsi,
Ruhunda Səttarxan, Xiyabani var.

Hikmət sarayını ucaldan, quran,
Sənin gözlərindən baxar Nizami.
Taxtına, tacına keşikdə duran
Müdriklər qoruyar nəzmi, nizamı.

Ürəyin əbədi odlar diyarı,
Zərdüştün ocağı sinəndə yanır.
İşığın sökdükcə qaranlıqları
Fikir cana gəlir, sözlər oyanır.

Ağıl zərgər olub naxış çəkəndə
Sərraf nəzərində gözlə bəzənər.
Sənin şəhərində, sənin ölkəndə
Qırxların süfrəsi sözlə bəzənər.

Sufilər günəşi, hürufi piri,
Səni başa çəkir Nəimi özü.
Burda hökm eləyər zamanın pəri
Tanrı hökmündədir Nəsimi sözü.

* * *

Dədə Camal adlı ülviyyət üçün
Bir xalı toxudum sözdən, sənətdən.
Ustada ehtiram, məhəbbət üçün
İlhamım pay gəldi mənə qüdrətdən

*2016*





## KİMYA VƏ NEFT MÜHƏNDİSLİYİ TƏLƏBƏLƏRİ ÜÇÜN MÜHAZİRƏ

Noyabrın 30-da Təbriz şəhəri Sahand Neft və Qaz Tədqiqat İnstitutunun direktoru Dr. Seyid Əlirza Tabatabaei Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin kimya və neft mühəndisliyi ixtisası üzrə bakalavr, magistr və doktorant tələbələri üçün universitetin "Mərmər" zalında "Neftin bərpa edilməsi metodlarında inkişafa ümumi baxış" adlı mühazirə oxudu.

Xəzər Universitetinin rektoru Dr.Hassan Niknafs və Neft mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalov da mühazirədə iştirak edirdilər.

Mühazirədən sonra Dr. Tabatabaei tələbələrin suallarını cavablandırdı.

## GUEST LECTURE FOR PETROLEUM ENGINEERING STUDENT

On November 30th, Dr. Seyyed Alireza Tabatabaei, Director of Sahand Oil and Gas Research Institute in Tabriz, Iran, gave a lecture for Khazar University bachelor, master and doctorate students majoring in Chemical and Petroleum Engineering in the School of Engineering and Applied Science in the university's Marble Hall. Dr. Tabatabaei graduated from Pennsylvania State University and completed his PhD at Heriot-Watt University. He worked for 25 years in the petroleum industry as a reservoir engineer, and wrote about 150 technical papers.

The topic of his lecture for students was "An Overview on Enhanced Oil Recovery Methods." After the lecture, Dr. Tabatabaei answered students' questions.

Dr. Hasan Niknafs, President of the University, and Associate Professor Gasham Zeynalov, Head of the Department of Petroleum Engineering also participated in the lecture.

## HAMLET İSAXANLI "TƏHSİL" TELEVİZİYASININ "TƏMƏL" PROQRAMINDA

Dekabrın 9-da Təhsil Nazirliyinin nəzdindəki "Təhsil" televiziyasının "Təməl" proqramında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov Azərbaycanda Rektorlar Şurasının yaradılması problemini müzakirə etdilər.

Proqramın aparıcısı Cəsarət Valehov idi. H.İsaxanlı Rektorlar Şurası (Rektorlar Konfransı, Rektorlar Assosiasiyası) ideyası, onun vəzifələri, müxtəlif ənənələr və Azərbaycanda bu istiqamətdə hansı növ fəaliyyətlərin zəruri və təbii olduğu barədə ətraflı məlumat verdi.

## HAMLET ISAXANLI ON FOUNDATION PROGRAM ON EDUCATION TV

On December 9, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was a guest on the Foundation program of Education TV operating in affiliation with the Ministry of Education. He and Jafar Jafarov, Rector of Azerbaijan State Pedagogical University, discussed the creation of Azerbaijani Rectors' Council.

The host of the program was Jesaret Valehov. H.Isaxanli spoke about the idea of a Rectors' Council (Rectors' Conference; Rectors' Association) including its duties, various traditions, and which activities in this sphere would be natural and/or necessary in Azerbaijan.

# MIDDLESEX UNİVERSİTETİNDƏ ERASMUS+ PROQRAMI ÇƏRÇİVƏSİNDƏ TƏLİM




Noyabrın 28-dən dekabrın 2-dək Xəzər Universitetinin nümayəndələri - Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova və layihələr üzrə koordinator Rima Məmmədova Erasmus+ proqramı çərçivəsində Middlesex Universitetində (London, Böyük Britaniya) partnyor universitetlərin əməkdaşları üçün keçirilən təlimdə iştirak etdilər.

Təlimdə tələbə və işçi heyətinin mobilliyi, işçi heyətinin inkişafı, tələbələrin iş bacarıqları, potensial kard quruculuğu, ali təhsil müəssisələrində tanınma və akkreditasiya və digər bir sıra məsələlər müzakirə olundu. Bu tədbir çərçivəsində keçirilən "Xaricdə təhsil sərgisi" Xəzər Universitetini Middlesex Universitetinin tələbə və işçi heyətinə təqdim etməyə də imkan yaratdı. Xəzər Universitetinin nümayəndələri hazırda Middlesex Universitetində Erasmus+ proqramı ilə mübadilədə iştirak edən doktorantımız ilə də görüşdülər.

Bu tədbirdə 15-dən çox ölkənin ali təhsil müəssisələrindən 50-ə yaxın iştirakçı öz təcrübələrini digərləri ilə bölüşdü.

## STAFF TRAINING WEEK AT MIDDLESEX UNIVERSITY

On November 28-December 2, a Staff Training Week was held at Middlesex University in London, within the Erasmus+Programme.

Participants from Khazar University included Turan Jafarova, Director of the International Affairs Office and Rima Mammadova, Project Coordinator. While at Middlesex, Khazar staff members also met with a PhD candidate of the University who is currently doing an exchange semester in the UK within the Erasmus+programme.

Topics covered by the training included student and staff mobility, staff development, student employability skills, capacity building projects, recognition and accreditation in higher education, and others. Staff Training Week also included a "Go Abroad Fair" which provided an opportunity to present Khazar University to the students and staff of Middlesex University.

The Staff Training Week brought together around 50 participants from higher education institutions of more than 15 countries for networking and best practices sharing.

## TƏLƏBƏLƏR XƏBƏR YAZMAĞI ÖYRƏNİRLƏR

Noyabrın 30-da Xəzər Universiteti Jurnalistika departamentinin koordinatoru Cabir Məmmədli universitetin İqtisadiyyat və menecment fakültəsinin II kurs tələbələri ilə görüşdü. Görüşün məqsədi "Tələbə jurnalist klubu"nun yaradılması ilə əlaqədar tələbələrə jurnalistika, xəbər, xəbər yazmanın ümumi qaydaları, xəbərin xüsusiyyətləri və s. haqqında ilkin məlumat vermək idi.

Qeyd edək ki, "Tələbə jurnalist klubu"nun məqsədi universitetdə keçirilən tədbirlərin daha operativ şəkildə işıqlandırılmasına kömək etməkdir.

Sonda tələbələrin sualları cavablandırıldı.



# NAXÇIVAN DÖVLƏT XALÇA MUZEYİNƏ EKSKURSİYA

Noyabrın 28-də rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov başda olmaqla NDU-nun əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyində olub. Muzeyin bələdçisi Simuzər Babayeva universitet əməkdaşlarına bildirib ki, etnomədəniyyətin, milli mənəvi dəyərlərimizin təbliğinə xidmət edən bu muzey 1998-ci ilin aprelindən fəaliyyət göstərir. Xan sarayında fəaliyyətə başlayan muzey 2010-cu ildən Heydər Əliyev prospektindəki yeni binaya köçürülüb. 1999-cu ildə ümummilli lider Heydər Əliyev bu mədəniyyət ocağını ziyarət edərək öz tövsiyələrini verməsi, mütəmadi dövlət qayğısı muzeyin fəaliyyətində əsaslı dönüş yaradıb.

Hazırda Naxçıvan Dövlət Xalça Muzeyində 3000-dən artıq eksponat vardır ki, onlardan 300-dən çoxu ekspozisiyada nümayiş etdirilir. 2013-cü ildə muzey yenidən qurulduqdan sonra ekspozisiyada yalnız Naxçıvan xalçaçılıq məktəbinə aid xalçalar nümayiş olunur. Muxtar respublikanın Şahbuz, Kolanı, Şərur, habelə Culfa, Ordubad kimi bölgələrində ən qədim xalq sənətimiz xalçaçılıq bu gün də peşəkar şəkildə davam etdirilir. Xovsuz və xovlu xalça növləri, habelə məfrəş, xurcun, torba kimi məmulatların ən gözəl nümunələri üçün muzeydə müasir qoruma standartlarına uyğun şərait yaradılıb. Muzeylə tanışlıq zamanı məlumat verilib ki, "Azər-İlmə" tərəfindən dünyanın müxtəlif ölkələrindən, şəxsi kolleksiyalardan əldə olunan 29 xovlu və xovsuz xalça, xalça məmulatları - üç məfrəş, xurcun, duz torbası da muzeyə hədiyyə olunub.

Muzeydə xalçaçılıqla bağlı mütəmadi sərgilər təşkil olunur, kitab təqdimatları, elmi konfranslar keçirilir. Muzeyin daimi ekspozisiyasını bəzəyən xovlu və xovsuz xalçalar, müxtəlif əl işləri, tikmələr, toxuculuq alətləri, mis və saxsı qablar universitet əməkdaşlarında böyük maraq doğurub.

# TƏLƏBƏ RƏSSAMLARIN HESABAT SƏRGİSİ



Dekabrın 9-da NDU-da Təsviri incəsənət kafedrasının müəllim və tələbələrinin əsərlərindən ibarət hesabat sərgisi keçirilib. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov sərginin açılışında çıxış edərək, təsviri sənət əsərlərinin bədii-estetik, ideoloji baxımdan mühüm dəyər kəsb etdiyini vurğulayıb. Rektor hesabat sərgisini tələbələr üçün sənət sınağı kimi dəyərləndirib, onlara öz sənət əsərləri ilə müstəqil Azərbaycanı, milli-mənəvi dəyərlərimizi, Naxçıvanın qədim tarixi abidələrini, müasir in-kişafını, əsrarəngiz təbiətini təbliğ etməyi tövsiyə edib.

Təsviri incəsənət kafedrasının müdiri, Xalq rəssamı, dosent Hüseynqulu Əliyev kafedranın illik fəaliyyəti, qazanılan sənət uğurları, istedadlı tələbə-rəssamların müxtəlif sərgilərdə uğurla iştirak etmələri barədə məlumat verib. Kafedra müdiri 2016-cı ildə universitetdə müxtəlif əlamətdar günlərə və milli bayramlara həsr olunmuş, habelə fərdi rəsm sərgilərinin keçirildiyini xatırladıb, muxtar respublikada yaradıcı gənclik üçün hərtərəfli şərait yaradılmasından danışıb.

Sonra sərgiyə baxış olub. Sərgidə dekorativ tətbiqi sənət, rəngkarlıq, qrafika növünə aid əsərlər, mənzərə, plakat, natürmort janrlarında müxtəlif mövzularda əl işləri nümayiş olunub. Tələbələrdən Aynur İmanova, Maisə Şirinova, Gülnar Mahmudova, Nurlan Hüseynli, Gülçöhrə Bağırova və digərlərinin yağlı və sulu boya ilə çəkdikləri rəsm əsərləri, Aysel Süleymanova, Turanə Hüseynova, Nuray Cavadova, Vüsalə Musayevanın vitraj, mozaika növlərində işlədikləri əsərlər sərgi iştirakçılarında xüsusi maraq doğurub.

**Mehriban Sultan,**
*NDU-nun Mətbuat şöbəsinin müdiri*





# TARİXİ HƏQİQƏTLƏRƏ SƏDAQƏTLİ ALİM

*Tanınmış tarixçi alim Firdovsiyyə Əhmədovanın yubileyi münasibətilə*

Firdovsiyyə Əhmədova ilə doxsanıncı illərdə indiki Siyasi Sənədlər Arxivinin oxu zalında tanış olmuşam. O zaman gənc tədqiqatçı Nəriman Nərimanovun fəaliyyətinə dair arxiv sənədlərini araşdırırdı, mən isə iyirminci illərdə Mir Cəfər Bağırovun fəaliyyətinə aid materiallar toplayırdım. Bir gün söhbət zamanı mənə dedikləri indiyəcən yaddaşıma hakim kəsilmişdir: "Hissiyyata qapılaraq şeir yazmaq olar, ancaq tarixə və tarixi şəxsiyyətlərə həqiqi qiymət verməmək olmaz." Bir neçə il keçdi, tövsiyəsini yerinə yetirdim. Arxiv sənədləri əsasında qələmə aldığım, "Ekspress" qəzetində dərc olunmuş "Nəriman Nərimanovla Mir Cəfər Bağırov daşnaklarla necə mübarizə aparmışlar" sərlövhəli məqaləmin surətini ona təqdim etdim.

Firdovsiyyə xanım isə illərlə yorulmadan Nəriman Nərimanova aid arxiv sənədlərini araşdırdıqdan sonra dissertasiyasını başa çatdırdı. 1998-ci ildə elmi işini "Elm və həyat" nəşriyyatı tərəfindən kitab halında oxuculara təqdim etdi: "Nəriman Nərimanov-ideal və gerçəklik". Dəyərli əsər elmi işçilərin, siyasətçilərin, gənc alimlərin, tələbələrin istifadə etdiyi vəsait oldu.

Bu gün Azərbaycanın tanınmış tarixşünas aliminin həmin əsərinin uzunömürlüyünün başlıca səbəbi nədədir? Nəriman Nərimanov haqqında əvvəllər yazılmış ənənəvi baxışlara son qoyulması! Firdovsiyyə Əhmədovaya qədər Nəriman Nərimanovdan yazanların əksəriyyəti onu "Şərqin Lenini" adlandırırdılar. Firdovsiyyə xanım isə bu möhürü millətimizin dahi oğlunun üzərindən həmişəlik götürür, özü də necə götürür – inkaredilməz dəlillər və arxiv sənədləri ilə. Oxucularını inandırır ki, əlli beş illik ömür sahibi dahi insan iyirminci yüzillikdə bütün Şərqin nicat yolu göstərəni olmuşdur. Müəllif yazır: "Şərq xalqlarının azadlığı yolunda mübarizə Nəriman Nərimanovun bütün ictimai-siyasi fəaliyyətinin əsasını təşkil edirdi. O heç də Rusiyadakı bolşevik modelini Şərqdə, o cümlədən Azərbaycanda olduğu kimi tətbiq olunmasının tərəfdarı olmayıbdır. 1919-cu ilin əvvəlində Qafqazın fəthinə dair yazısında bir proqram olaraq göstərir ki, Qafqaz dağlarından sonra süngü tətbiq etmək olmaz. Yerli xalqların psixologiyasını, düşüncəsini, adət-ənələrini nəzərə almaq lazımdır. Bu, Nəriman Nərimanovun mövqeyi idi."

(*Bax:https://admiral.az/az/news/technology/40322/nerimanov-kim-idifirdovsiyye-ehmedova-fexr-edeceyimiz-detallari-achiqlayir#*).

Zaman, çağdaş dövr Rusiya bolşeviklərinin rəhbərlərinin deyil, Şərqin Nərimanovunun dediklərini təsdiq etdi. Şərq ölkələrində zor gücünə Rusiyadakı bolşevik rejimini tətbiq etmək səyləri yüz minlərlə günahsız insanın faciəsinə səbəb oldu. Bu gün də qoca Şərqin müsəlmanlar yaşayan ölkələrində başqa variantda süngü siyasət yeridilir.

Beləliklə, nərimanovşünaslıqda xalqımızın həmişəyaşar övladının üzərindən "Şərqin Lenini" yarlığını Firdovsiyyə Əhmədova götürmüşdür.

Tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova Nəriman Nərimanov və Azərbaycan Cümhuriyyəti, Məhəmməd Əmin Rəsulzadə münasibətlərini zəmanəmiz baxımından işıqlandırmışdır: "Nəriman Nərimanov cümhuriyyət quruluşunun bərqərar olunması uğrunda mübarizə aparan bir şəxs olmuşdur. Hətta 1895-ci ildə onun evində axtarış aparılarkən respublika quruluşunun monarxiyadan üstün olması haqqında məruzəsi də aşkar olunub. 1917-ci ildə "Hümmət" qəzetində (*qəzetin redaktoru Nəriman Nərimanov idi – T. Q.*) Məhəmməd Əmin Rəsulzadənin cümhuriyyət barəsindəki məqaləsini dərc etmişdi. Məqalənin məğzi ondan ibarətdi ki, cümhuriyyət bir ənam deyil, xalqa xidmət etmək üçün bir vasitə olmalıdır. Nərimanov

1920 - ildə Azərbaycan Cümhuriyyəti xadimlərinin repressiyadan , təqiblərdən xilas olunması üçün əlindən gələni əsirgəməmişdir. Hətta onlara pasportlar düzəltdirərək, xaricə getmələri üçün böyük yardım etmişdi.

Nəriman Nərimanov 1920-ci ildən sonra mövcud Rusiya modelinin zorakı şəkildə Azərbaycana tətbiq olunmasına qarşı çıxırdı. Bu da Azərbaycanın milli maraqlarına xidmət edən mövqe idi. Ona görə də, Nərimanovu artıq 1920-ci ildən sonra mərkəzi hakimiyyətlə yanaşı yerli bolşeviklər də millətçi, islamçı adlandırırdılar. Xarici siyasətdə isə Nərimanov Türkiyə ilə son dərəcə yaxınlaşma yolunu tutmuşdu. Məmməd Səid Ordubadi xatirələrində yazır ki, Nəriman Nərimanov Moskvadan dönəndən sonra zehniyyəti ilə sanki tamam başqa insana çevrilmişdi. Bolşevik hökumətinin rəhbəri adi bir molla ilə ünsiyyətdə olurdu, söhbət edirdi."

(*Bax: https://admiral.az/az/news/technology/41776/nerimanov-kim-idi-firdovsiyye-ehmedova-fexr-edeceyimiz-detallari-achiqlayir-ii-hisse#*)

Təəssüflər olsun ki, iyirminci əsrin doxsanıncı illərində mətbuat səhifələrində Məmməd Səid Ordubadinin dediklərini qaralayanlar peyda oldu. Belələri guya Nəriman Nərimanovu və Sovet quruluşunu tərənnüm etmək naminə Məhəmməd Əmin Rəsulzadəni və banisi olduğu Cümhuriyyəti pisləyirdilər. Məsələn, 1996-cı ilin fevralında əməkdar elm xadimi, tarix elmləri doktoru Kamran Rəhimovun "Azərbaycan" qəzetində dərc olunmuş məqaləsində deyildiyi kimi: "Nərimanov ömrünün sonunadək öz xalqı ilə birlikdə əzablara dözmüş, canını fəda vermişdir. Rəsulzadə isə ölkəni tərk edib köçmüş, ömrünün sonunadək xaricdə yaşamışdır." (Qəzet "kollektiv təşkilatçı" rolunu oynamışdır. Və Azərbaycan Respublikasının birinci prezidenti Ayaz Mütəllibovun zamanında şəhərimizin Kukla teatrı ilə üzbəüz meydanında M. Ə. Rəsulzadənin ucaldılacaq abidəsinin bünövrə lövhəsi götürülmüş, yerində fəvvarə qurulmuşdur).

Bütün bu əməkdar elm xadimlərinin və digərlərinin tutarlı cavabını Firdovsiyyə xanım vermişdir: "Bu gün Məhəmməd Əmin Rəsulzadəni qəbul etməyənlər onun yaratdığı müstəqil ölkədə yaşayırlar, onun yaratdığı bayraq altında birləşiblər, onun səsləndirdiyi himni səsləndirirlər. Məhəmməd Əmin Rəsulzadə xalqın qəlbində daima yaşayır. Nə qədər ki, üçrəngli bayrağımız var, Rəsulzadə də var. Onu bizim qəlbimizdən heç kim çıxara bilməz. 28 May gününün özünün fəlsəfəsi var".

(*Bax: http://www.azadliq.org/a/1376858.html*)

Firdovsiyyə Əhmədova sübut edir ki, 28 May günü fəlsəfəsinin ana xəttini şəhidlik zirvəsi təşkil edir. 1920-ci il mayın 24-dən iyunun 3-dən 4-nə keçən gecəyədək davam etmiş Gəncə üsyanı Cavad xanın ölməzliyinin rəmzi idi. Məhəmməd Əmin Rəsulzadənin sözlərini xatırlatmaq istəyirəm: "Cavad xanın Gəncəsi bu üsyanda da zühur edib öz sözünü dedi." Gəncə üsyanı bir daha yetmiş ildən sonra, 1990-cı ilin yanvarında Bakıda zühur etdi. Şəhərin Şəhidlər xiyabanında əbədiyyət yuxusuna dalmış şəhidlər arasında Gəncə üsyanı iştirakçılarının nəvə-nəticələri də vardır.

2010-cu ildə Firdovsiyyə xanımın təşəbbüsü ilə Xanlar Bayramovun "Gəncə üsyanı -1920. (Sənədlər və materiallar)" kitabı işıq üzü gördü. Əsərin elmi məsləhətçisi olan Firdovsiyyə xanım təqdimat mərasiminin də aparıcısı idi. Çıxışının əvvəlində Xanlar Bayramovun kitabını "Gəncə üsyanının 90 illiyinə mənəvi abidə"adlandırdı. Sonra qeyd etdi ki, uzun illər "Gəncə üsyanı" mövzusunda obyektiv tədqiqat işi aparılmayıb. Yazılanlar isə ağ yalan və uydurmalardan ibarətdir. Xanlar Bayramov isə fərqli mövqe tutmuşdur. 17 il ərzində üzərində işlədiyi və təqdimatına yığışdığımız dəyərli bir kitab meydana gətirmişdir. Müəllif elmi ada iddia etmir. Maksimum dərəcədə obyektiv olmağa səy göstərir.

Xanlar Bayramovun "Gəncə üsyanı -1920" kitabında "Gəncə üsyanı və Nəriman Nərimanov" sərlövhəli ayrıca fəsil vardır. Burada (səh. 79-80 ) oxuyuruq: "Bu mövzu tarix elmləri namizədi Firdovsiyyə Əhmədovanın "Nəriman Nərimanov-ideal və gerçəklik" kitabında təhlil olunub... Firdovsiyyə Əhmədova bu qənaətə gəlir ki, üsyanlar Azərbaycanda sovetləşmə prosesinə təsirsiz qalmadı. Sovet tarixşünaslığının inkar etmədiyi bu üsyanlar hər şeydən əvvəl xalqın öz varlığını təsdiqləmək, tanıtmaq, hüququnu xatırlatmaq, iradəsilə hesablaşmaq əzminin təcəssümüdür, milli azadlıq hərəkatına yazılmış səhifələr sayılmalıdır."( səh. 86).

Firdovsiyyə Əhmədovanın elmi yaradıcılığı çoxşaxəlidir. Beynəlxalq münasibətlər tarixi, Azərbaycanın müasir dövr siyasi tarixi, Azərbaycan dövlətçilik tarixi, Azərbaycanda siyasi hakimiyyət və dövlət idarəçiliyi məsələləri onun tədqiq etdiyi sahələrdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri, dosent Firdovsiyyə Əhmədova təkcə tələbələrinin deyil, gənc oxucularının da müəllimidir. "Nəriman Nərimanov-ideal və gerçəklik" adlı monoqrafiyası, 40-dan çox elmi məqaləsi, "Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası" ikicildliyində 200 məqaləsi, tərtibçilərindən olduğu 7 elmi toplu belə deməyə əsas verir. O, beynəlxalq elmi konfranslarda respublikamızı ləyaqətlə təmsil edir. Ən ümdəsi həm də odur ki, Firdovsiyyə Əhmədova böyük ziyalı və gözəl natiqdir.

Sözümü hissə qapılaraq bədahətən qoşa misra ilə bitirirəm:

*Mənim qəhrəmanım Firdovsiyyədir,*
*Onun iradı da bir tövsiyədir.*

**Teyyub Qurban**

*Dekabr 2016-cı il*

# XARİCİ TƏLƏBƏLƏRİMİZİN ÇƏKİLDİKLƏRİ MULTİKULTURALİZMƏ AİD VİDEOÇARXIN TƏQDİMATI OLUB

Xəbər verdiyimiz kimi, Əfqanıstan, Qambiya, İran, İraq, Pakistan, Fələstin, Türkiyə, Yəmən və Zimbabvedən olan 13 xarici tələbəmiz noyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun "Azərbaycan xalqının əvəzsiz sərvəti - multikulturalizm ənənələri" layihəsi çərçivəsində Azərbaycanda multikulturalizm mövzusuna həsr olunan sosial reklamın çəkilişində iştirak etmişdilər.

*(www.khazar. org və "Xəzər Xəbər" jurnalı, noyabr 2016-cı il)*

Dekabrın 1-də Beynəlxalq Mətbuat Mərkəzində"Biz fərqliyik, amma hamımız Azərbaycandayıq" adlı həmin videoçarxın təqdimatı keçirilmişdir.

Layihənin müəllifi Cahangir Nəsirov bildirib ki, hazırlanan sosial çarxın çəkilişləri Xəzər Universitetində aparılıb. Çəkilişlərdə 11 müxtəlif ölkədən olan tələbələr iştirak ediblər.

Layihənin məqsədi ilə bağlı məlumat verən layihə rəhbəri qeyd edib ki, milli məfkurəni, tarixə söykənən milli dəyərlərimizi qorumaq hər bir gəncin borcudur. Ölkəmizi dünyada digər xalqlardan fərqləndirən önəmli dəyərlərindən biri də multikulturalizm ənənələrimizdir. Məqsədimiz gənclərimizi milli dəyərlərimizi qorumağa çağırmaq, ölkə rəhbərinin elan etdiyi "Multikulturalizm ili"nə gənclərin bir töhfə verməsinə nail olmaq, Azərbaycanın multikulturalizm istiqamətində böyük təcrübəsini bölüşmək və sairdir.

Çəkilişlərdə iştirak edən xarici tələbələr Azərbaycan haqqında sevgilərini, burda onlara göstərilən qardaşlıq münasibətindən söhbət açıblar.

Tədbirdə çıxış edənlər gənclərin multikulturalizm dəyərlərinə göstərdiyi bu diqqəti alqışladılar, təqdim olunan videoçarxın peşəkarlıqla hazırlandığını söylədilər. Çəkilişlərdə iştirak edən xarici tələbələrin çıxışlarının öz dillərində olması videoçarxın daha maraqlı olmasına səbəb olub və bu xarici vətəndaşların da çarxı izləmələrinə zəmin yaradacaq.

Tehsil-press informasiya agentliyi tədbirdən xəbər vermişdir: *http://tehsil-press.az/index.php?newsid=15424*

Hazırlanmış videoçarx mediada yayımlanmışdır. Videonu bu linkdə izləmək olar: *https://www.youtube.com/watch?v=75Wd2s9qTbA&t=15s*



# PRESENTATION OF VIDEO ON MULTICULTURALISM FEATURING INTERNATIONAL STUDENTS OF KHAZAR UNIVERSITY







As we previously reported, thirteen international students from countries like Afghanistan, Gambia, Iran, Iraq, Pakistan, Palestine, Turkey, Yemen and Zimbabwe appeared in a social video about multiculturalism within a project entitled "The Irreplaceable Resource of the Azerbaijani People: Traditions of Multiculturalism" supported by the Youth Fund under the President of the Republic of Azerbaijan in connection with the year of multiculturalism (www.khazar.org and Khazar Review journal, November 2016).

On December 1st, a presentation of the video entitled "We are Different, but We are All Azerbaijani" was held at the International Press Center.

The author of the project, Jahangir Nasirov, noted that the taping of the social project took place at Khazar University. Students from 11 different countries participated in the project. The project manager gave information about the objective of the project, noting that it is the duty of every young person to preserve our national values which stem from history and from our national mentality. One of the values that sets our country apart from other countries is the tradition of multiculturalism. Our goal is to call on young people to preserve our national values, to help young people make a contribution to the "Year of Multiculturalism" which was announced by the president, and to share Azerbaijan's great experience in the area of multiculturalism.

Students participating in the filming expressed their love for Azerbaijan and the brotherhood that they feel here.

Participants in the presentation applauded the young people's attention to multicultural values, and they said that the film was produced very professionally. The international students participating in the filming spoke in their own languages, which made the film more interesting and will create an opportunity for foreign citizens to watch the film as well.

News about the event was published by the Education-Press information agency:

*http://tehsil-press.az/index.php?newsid=15424*

The prepared video was also published on the media. The video is available at this link:

*https://www.youtube.com/watch?v=75Wd2s9qTbA&t=15s*




# АВРААМ ШМУЛЕВИЧ

***В Армении призывают начать антисемитские кампании в СМИ, оказывать давление на армянских евреев, и поставить Израиль перед выбором: жизни евреев в Армении и за рубежом или жизни армянских солдат.***

В связи с визитом Нетаньягу в Баку в армянской прессе появилась серия антисемитских публикаций. Подобного рода статьи появляются в СМИ Армении и армянский диаспоры часто, но на этот раз ненависть к евреям достигла очередного пика. Одна из статей носит характерный заголовок: «Армяне и евреи: по разные стороны баррикад».

Я посмотрел лишь несколько сайтов. Думаю, количество подобного рода статей много больше.

Что бы остановить «израильско-азербайджанское сотрудничество в военной сфере», авторы призывают инициировать антисемитскую кампанию в зарубежных СМИ, на которые есть влияние у армянской диаспоры, с проживающими в Армении евреями «провести профилактические беседы с применением элементов давления, дабы те сигнализировали в Израиль» и поставить Израиль перед выбором: жизни евреев в Армении и за рубежом или жизни армянских солдат.

Евреи именуются «жадными до денег», евреям свойственна «ущербная армянофобия», евреи «нагло приватизировали положение единственного народа в истории человечества, пережившего геноцид», «одной из главных причин армянофобии у евреев является банальная зависть евреев к нам, армянам», «евреи в массе своей заняли антиармянскую позицию, упомнается «патологическая любовь евреев к деньгам».

Поддерживается «курс правительства Армении и армянской диаспоры на развитие стратегически отношений с государствами, с которыми у Израиля напряженные отношения. В первую очередь, с Ираном, который отказывает Израилю в праве на существование как государства. наши интересы тесно переплетаются с интересами Ирана, в том числе, в отношении Израиля».

**ВОТ РАЗВЕРНУТЫЕ ЦИТАТЫ:**

А ведь у нас есть рычаги давления на Израиль. В первую очередь, это международные организации, с трибун которых необходимо извещать весь мир о преступных сделках жадных до денег евреев и азеров, направленных против армянского народа.

У армянской диаспоры в России, Франции и США имеются рычаги давления на еврейское лобби. В крайнем случае имеет смысл начать в подконтрольных диаспоре СМИ антисемитские кампании, остановить которые следует только после того, как еврейское лобби надавит на власти Израиля в вопросе поставок Азербайджану новейшего и сверхточного вооружения.

Кроме того, в Армении проживает небольшая прослойка евреев. Необходимо провести с ними профилактические беседы с применением элементов давления, дабы те сигнализировали в Израиль о недовольстве армянской стороной израильско-азербайджанским сотрудничеством в военной сфере.

Конечно, кому-то предлагаемые нами методы могут показаться аморальными. Однако важно

понимать, что на кону жизнь армянского солдата, жизнь нашего народа, которых азеры намерены уничтожить с помощью израильского вооружения. И, признаюсь, если ставить на кон жизни евреев в Армении и за рубежом и жизни армянских солдат в Арцахе, то выбор тут однозначный.

**Тевос Аршакян**. Нетаньяху едет в Баку. Время действовать! ArmenianReport. 2016-12-10 10:02:21. *http://www.armenianreport.com/pubs/144984/*

***

На протяжении двух с половиной десятков лет Израиль и еврейское лобби в мире настроены крайне враждебно по отношению к армянам. Нам пришлось пережить потоки оскорблений и клеветы в свой адрес, учитывая богатый еврейский опыт борьбы с неугодными, а также наглую приватизацию евреями положения единственного народа в истории человечества, пережившего геноцид. Одной из главных причин армянофобии у евреев является банальная зависть евреев к нам, армянам.

я считаю верным курс правительства Армении и армянской диаспоры на развитие стратегически отношений с государствами, с которыми у Израиля напряженные отношения. В первую очередь, с Ираном, который отказывает Израилю в праве на существование как государства. С Тегераном Ереван уже давно выступает в тесной связке по многим конкретным проблемам и вопросам внешней политики. Но даже тут четко просматривается ущербная армянофобия евреев, которые всякий раз шумно возмущаются слишком близкими отношениями Армении с Ираном и обвиняют нас в антисемитизме. Пока наши интересы тесно переплетаются с интересами Ирана, в том числе, в отношении Израиля.

**Тевос Аршакян.** Армяне и евреи: по разные стороны баррикад. ArmenianReport. 2016-12-09 09:55:15. *http://www.armenianreport.com/pubs/144900/*

***

Они суют свои длинные носы туда, куда не следует. Они же с упоением рассказывают об «идеальном» состоянии отношений между Израилем и Азербайджаном. Ничего иного, в плане аморальности, не стоит ожидать от страны, вооружающей нашего противника. Причем, в Израиле и не думают прекращать этот кровавый бизнес. Там радостно подкидывают кипы, когда заключается новый договор о передаче смертельного оружия Азербайджану.

**Грачья Галустян.** По кому нужно было «стрелять» Эдуарду Шармазанову? ArmenianReport. 2016-12-07 09:38:23. *http://www.armenianreport.com/pubs/144727/*

Характерно, что перед самым заголовком статьи: «По кому нужно было «стрелять» Эдуарду Шармазанову?» идёт вот эта фотография:









## MÜƏLLİMİMİZ BEYNƏLXALQ SİMPOZİUMDA

Azərbaycan Milli Elmlər Akademiyası Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin müdiri, Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi fəlsəfə doktoru Ziyad Əmrahov Ankarada Türkiyə Cümhuriyyəti Başbakanlık Atatürk Araşdırma Mərkəzi ilə Ankara Yıldırım Bəyazid Universitetinin dekabrın 1-2-də birgə təşkil etdikləri "Sayks-Piko gizli andlaşmasının 100-cü ilində Orta Şərq və Türkiyə" adlı beynəlxalq simpoziumda ingilis dilində "*Soviet plans about Black Sea Straits after World War II*" ("İkinci Dünya müharibəsindən sonra Qara dəniz boğazları ilə bağlı Sovet planları" mövzusunda məruzə etmişdir.

Məruzəsinin sonunda Z.Əmrahov simpozium iştirakçılarının suallarını cavablandırmışdır.

## KHAZAR UNIVERSITY INSTRUCTOR MAKES PRESENTATION AT INTERNATIONAL SYMPOSIUM

On December 1-2, Ziyad Amrahov, Director of the Division of Armenian Studies in the Caucasian Studies Institute of the Azerbaijan National Academy of Sciences as well as instructor for Khazar University Department of History and Archeology, gave a presentation in English on "Soviet plans about Black Sea Straits after World War II" at an international symposium on "the Middle East and Turkey 100 Years after the Sykes-Picot Secret Agreement" which was jointly organized by the Prime Ministry of the Republic of Turkey in Ankara's Ataturk Research Center and Yildirim Beyazid University in Ankara.

After the lecture, Amrahov answered symposium participants' questions.

## "XƏZƏR"İN ƏMƏKDAŞLARI TAIEX SEMİNARINDA

Dekabrın 1-2-də Bakıda (Qafqaz Baku City Hotel & Residence) Avropa İttifaqı və Azərbaycan Respublikası Təhsil Nazirliyi arasında birgə əməkdaşlıq çərçivəsində Bolonya prosesinə uyğun ikili diplomlar və MBA proqramı üzrə TAIEX seminarı keçirilib.

Seminar zamanı Azərbaycanda və Avropa İttifaqına üzv ölkələrdə MBA proqramları, ikili dərəcə diplom təhsili, Bolonya prinsipləri çərçivəsində Avropa İttifaqı və ittifaqa üzv olmayan ölkələrdə birgə və ikili dərəcə diplomlarının tanınması prosedurları və digər məsələlər müzakirə olunub.

Seminarda Xəzər Universitetindən Keyfiyyətin təminatı mərkəzinin rəhbəri Lyudmila Sotova və İqtisadiyyat və menecment departamentinin rəhbəri Ceyhun Məmmədov iştirak etmişlər.

## KHAZAR STAFF MEMBERS AT TAIEX SEMINAR

On December 1-2, a TAIEX seminar on double diplomas and MBA programs according to the Bologna Process was held as part of a partnership between the European Union and the Ministry of Education of the Azerbaijan Republic.

During the seminar, discussions were held about MBA programs in Azerbaijan and countries of the European Union, double-degree education, and the procedure to recognize double-degree diplomas between the European Union and non-Union countries.

Lyudmila Sotova, Director of the Quality Assurance Center, and Jeyhun Mamadov, Chair of the Department of Economics and Management, participated in the event.

## KARYERA İNKİŞAF MƏRKƏZİ BAMF İLƏ ƏMƏKDAŞLIQ EDİR

## CAREER DEVELOPMENT CENTER PARTNERS WITH BAMF

BAMF

Black Adventist Ministerial Fellowship

Xəzər Universiteti Karyera inkişaf mərkəzi Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) ilə əməkdaşlıq edir. Bu əməkdaşlığın nəticəsi olaraq, növbəti yaz semestri ərzində beynəlxalq münasibətlər, regionşünaslıq və siyasi elmlər ixtisaslarının 3-cü və 4-cü kurs tələbələri təcrübə proqramlarında və təlimlərdə iştirak etmək imkanı əldə edəcəklər.

Məqsəd universitetin siyası elmlər üzrə təhsil alan tələbələrinin müəyyən təcrübə proqramlarında, xaricdə keçirilən konfranslarda iştirakını təmin etməkdir.

The Khazar University Career Development Center has a working partnership with the International Eurasian Press Foundation (BAMF). As a result of this partnership, third- and fourth-year students majoring in International Relations, Regional Studies and Political Science will be given the chance to participate in internships and trainings in the next spring semester.

The objective is to provide for the participation of university students majoring in Political Science-related fields in certain internship programs and conferences abroad.





## QÜDRƏT İSMAYILZADƏ İLƏ GƏNC TARİXÇİLƏRİN GÖRÜŞÜ

Dekabrın 6-da Xəzər Universitetinin konfrans zalında Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə Bakı Dövlət Universiteti Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru, əməkdar müəllim, tarix elmləri doktoru, professor Qüdrət İsmayılzadə ilə tarix ixtisasında təhsil alan birinci kurs tələbələrinin görüşü keçirildi

Q. İsmayılzadə elmi fəaliyyətindən, arxeoloji ekspedisiyalardan, qarşılaşdığı hadisə və situasiyalardan danışdı, tələbələrin suallarını cavablandırdı.

Sonda tələbələr görkəmli alimlə xatirə şəkilləri çəkdirdilər.

## GUDRET ISMAYILZADEH MEETS WITH YOUNG HISTORIANS

On December 6, Professor Gudret Ismayilzadeh, Chair of the Department of Archeology and Ethnography at Baku State University, Editor in Chief of Azerbaijan Archeology Journal, Meritorious Educator, and Doctor of Historical Sciences, met with Khazar University students upon the initiative of the Khazar University Department of History and Archeology. The meeting was an introduction for first-year students of the School of Education.

Professor Gudret Ismayilzadeh spoke about his academic activities, archeological expeditions, and situations he encountered.

At the end of the event, Gudret Ismayilzadeh took a group photo with the students.

## XƏZƏR UNİVERSİTETİNDƏ XEYRİYYƏ YARMARKASI



Dekabrın 8-də Xəzər Universitetində Təhsil fakültəsinin tələbələri tərəfindən xeyriyyə məqsədilə "Ev şirniyyatları-2" adlı yarmarka təşkil edildi.

Yarmarkada Xəzər Universitetinin tələbələri və əməkdaşları iştirak etdilər. Yarmarkadan toplanan vəsait Xəzər Universitetinin qan xərçəngindən əziyyət çəkən magistr tələbəsinə və talassemiya xəstəsi olan 4 yaşlı Aylanın müalicəsinə sərf olunacaq.

# ƏMƏKDAŞLARIMIZ AKAKİ TSERETELİ UNİVERSİTETİNDƏ

Dekabrın 5-7-də Gürcüstanın Kutaisi şəhərindəki Akaki Tsereteli Dövlət Universitetində Erasmus+ proqramı çərçivəsində Xəzər Universitetinin hazırladığı "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" (*"AESOP: Advocacy Establishment for Students through Ombudsman Position"*) layihəsinin ilk iclası keçirildi.

İclasda Xəzər Universitetinin İnkişaf direktoru Raziyə İsayeva, "Xəzər Xəbər" jurnalında ingilis dilində mətnlərin redaktoru Marta Lauri, layihə koordinatoru və Əlilliyi olan Tələbələr üçün Mərkəzin koordinatoru Rima Məmmədova layihə haqqında çıxış etdilər.

"Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" layihəsi Erasmus+ proqramı çərçivəsində 2015-ci ildə Xəzər Universiteti tərəfindən qazanılmışdır. Bir il müddətində layihə uyğun qanunvericilikdə yaranmış problemlərlə bağlı qeydiyyata alınmadığı üçün Gürcüstanın Akaki Tsereteli Dövlət Universitetinə verilmişdir.



# KHAZAR STAFF MEMBERS PARTICIPATE IN PROJECT MEETING IN GEORGIA

On December 5-7, a kickoff meeting for the "Advocacy Establishment for Students through Ombudsman Position (AESOP)" Erasmus + project was held at Akaki Tsereteli State University in Kutaisi, Georgia.

Raziya Isayeva, Development Director of Khazar University; Rima Mammadova, project manager for the university and coordinator of the Center for Students with Disabilities; and Martha Lawry, English Editor, represented Khazar University in the meetings and made prsentations about the project.

Khazar University won a grant for the "AESOP: Advocacy Establishment for Students through Ombudsman Position" through the Erasmus+ program in 2015. Due to problems that arose in legislation related to the project in the same year, the project was unable to be registered in Azerbaijan, and it was transferred to Akaki Tsereteli State University in Georgia for coordination.

# FHN-İN ƏMƏKDAŞLARI XƏZƏR UNİVERSİTETİNDƏ





Dekabrın 8-də Xəzər Universitetində Fövqəladə Hallar Nazirliyinin (FHN) təşkilatçılığı ilə "Həyat fəaliyyətinin təhlükəsizliyi tələbələrin gözü ilə" adlı tədbir keçirildi. Tədbir Bakı şəhərinin ali təhsil müəssisələrində tələbələrin insanların həyat fəaliyyətlərinin təhlükəsizliyi məsələlərinə baxışları ilə tanış olmaq, bu sahədə mövcud olan nailiyyətlər, problemlər və perspektivləri müzakirə etmək, fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması istiqamətində yeni fikirlər ortaya çıxarmaq məqsədilə təşkil olunmuşdu. Tədbirdə FHN-nin əməkdaşları, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının rəhbərliyi, ali təhsil müəssisələrinin tələbələri iştirak edirdilər.







Tədbiri giriş sözü ilə Xəzər Universitetinin rektoru Dr.Hassan Niknafs açdı. FHN Bakı Regional Mərkəzinin rəis müavini polkovnik-leytenant Elnur Qasımov, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı Qeyri-Hökumət Təşkilatları ilə iş departamentinin direktoru Həsən Əliyev, Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli tədbirin keçirilməsinin əhəmiyyətindən danışdılar.

FHN Bakı Regional Mərkəzinin əməkdaşlarının hazırladığı videofilmin təqdimatı oldu. Filmin təqdimatından sonra tələbələr – Emil Bayramov, Fatimə Qənbərli (Xəzər Universiteti), Mirramin Yusifov (FHN Akademiyası), İlahə Balakişiyeva (Azərbaycan Dillər Universiteti), Sozalı Qurbanov (Azərbaycan Dövlət İqtisad Universiteti), Ülvi Mirzəyev (Azərbaycan Kooperasiya Universiteti), Həyat Qarayeva (Bakı Dövlət Universiteti), Fərid Ələkbərli, Rauf Vəliyev (Azərbaycan Tibb Universiteti) müxtəlif mövzularda təqdimatlar keçirdilər.

Tədbirin sonunda tələbələrin sualları cavablandırıldı.







# REPRESENTATIVES OF MINISTRY OF EMERGENCY SITUATIONS VISIT KHAZAR

On December 8, the Ministry of Emergency Situations (MES) of the Azerbaijan Republic organized an event at Khazar University entitled "Everyday Safety in the Eyes of Students." The objective of the event, which is being held at various higher educational institutions of Baku, is to become familiar with students' perspectives on safety related to everyday activities, to discuss achievements, problems and prospects in this area, and to introduce new ideas about how to prevent emergencies and reduce their negative consequences.

Participants in the event included representatives of the MES, leadership of Azerbaijan Students' Youth Organizations Union, and university students.

Dr. Hasan Niknafs, President of the University, opened the event with a speech. Then speeches about the significance of the event were made by Lieutenant Colonel Elnur Gasimov, Deputy Head of the MES Regional Center for Baku; Hasan Aliyev, Director of the Department for Coordination with NGOs of the Azerbaijan Students' Youth Organizations Union; and Alovsat Amirbeyli, Director for Public Relations and Media of Khazar University.

Then a video prepared by the employees of the MES Regional Center for Baku was shown. After the film, the following university students made presentations on various themes: Emil Bayramov and Fatima Ganbarli (Khazar University), Mirramin Yusifov (MES Academy), Ilaha Balakishiyeva (Azerbaijan University of Languages), Sozali Gurbanov (Azerbaijan State Economics University), Ulvi Mirzeyev (Azerbaijan Cooperation University), Hayat Garayeva (Baku State University), Farid Alakbarli and Rauf Valiyev (Azerbaijan Medical University).

The event closed with a question-and-answer session.



# BDU-NUN PROFESSORU "XƏZƏR"DƏ MÜHAZİRƏ OXUDU

# BSU PROFESSOR GIVES GUEST LECTURE AT KHAZAR

Dekabrın 8-də Tarix və arxeologiya, Dillər və mədəniyyətlər departamentlərinin təşkilatçılığı ilə BDU-nun professoru, fəlsəfə elmləri doktoru Əsədulla Qurbanov tarix, politologiya, beynəlxalq münasibətlər və regionşünaslıq ixtisasları üzrə təhsil alan tələbələrə "İslam dinində multikulturalizmin əsasları" mövzusunda mühazirə oxudu.

Alim 2016-cı ilin Azərbaycanda Multikulturalizm ili elan olunmasının əhəmiyyətindən, multikulturalizm və tolerantlıq kimi ümumbəşəri dəyərlərin islam dininin zəruri ehkamlarından olduğunu Quran ayələrinə, müsəlman övliya və mütəfəkkirlərinin fikirlərinə istinad etməklə əsaslandırdı, Qərb yazıçı və filosoflarının islam dini haqqında yazdıqlarını nəzərə çatdırdı, tələbələrin suallarını cavablandırdı.

Sonda departament müdirləri, fəlsəfə doktorları Roza Arazova və Elnurə Əzizova maraqlı mühazirəyə görə professora təşəkkürlərini bildirdilər.

On December 8, Professor Dr. Asadulla Gurbanov of Baku State University gave a lecture on "The Foundations of Multiculturalism in Islam" for students majoring in History, Political Science, International Relations and Regional Studies. The event was coordinated by the Department of History and Archeology and the Department of Languages and Civilizations.

The scholar spoke about the significance of the announcement of 2016 as the Year of Multiculturalism in Azerbaijan and the important doctrines of universal human values such as multiculturalism and tolerance in Islam, citing Quran passages and the teachings of Muslim saints and thinkers. He also spoke about the writings of Western authors and philosophers about Islam, and he answered students' questions.

At the end of the event, the department chairs Roza Arazova and Elnura Azizova thanked the professor for his interesting lecture.



## HAMLET İSAXANLI RİYAZİYYAT DEPARTAMENTİNİN ƏMƏKDAŞLARINI QƏBUL ETDİ

Dekabrın 8-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə universitetin Riyaziyyat departamentinin əməkdaşlarını qəbul etdi.

Görüşdə H. İsaxanlının departamentin inkişafı və gələcək fəaliyyəti istiqamətlərinə dair təklifləri dinlənildi və fikir mübadiləsi aparıldı.

P&G Procter & Gamble

## ŞİRKƏTİNİN ƏMƏKDAŞLARI TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜLƏR




Dekabrın 8-də Xəzər Universitetinin Karyera mərkəzinin təşkilatçılığı ilə İqtisadiyyat və menecment fakültəsinin tələbələri və "Procter & Gamble" şirkətinin əməkdaşlarının görüşü keçirildi. Görüşdə şirkətin əməkdaşları fakültənin bakalavr və magistr tələbələrinə yay təcrübə proqramı, proqrama müraciət və intervyü haqqında məlumat verdilər.

Sonda tələbələrin sualları cavablandırıldı, "Procter & Gamble" şirkəti adından tələbələrə hədiyyələr verildi.





## CAREER DEVELOPMENT CENTER MEETS WITH PROCTER & GAMBLE

On December 8, the Khazar University Career Center organized a meeting between representatives of Procter & Gamble and students of the School of Economics and Management. The meeting covered information about summer internships for bachelor's and master's students, how to apply for the program, and interviews.

At the end of the event, student's questions were answered, and Procter & Gamble representatives gave company gifts to the participants.





## BP-NİN NÜMAYƏNDƏSİ MÜHAZİRƏ OXUDU

Dekabrın 2-də BP-nin İstehsal mühəndisliyi departamentinin müdiri Ehtiram Əzizov Neft Mühəndisləri Cəmiyyətinin dəstəyi ilə təşkil olunmuş "Azəri-Çıraq-Günəşli yatağının problemləri" mövzusunda Xəzər Universitetinin tələbələri üçün mühazirə oxudu.

Mühazirədə Xəzər Universitetinin tələbələri ilə yanaşı, Neft mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin və Bakı Ali Neft Məktəbinin tələbələri də iştirak edirdilər.

Mühazirə interaktiv formatda keçirilirdi və E.Əzizov tələbələrin suallarını cavablandırdı.

## BP REPRESENTATIVE GIVES GUEST LECTURE

On December 2, Ehtiram Azizov, Head of the Production Engineering Department of BP, gave a guest lecture for Khazar University students about "Issues of the Azeri-Chiraq-Guneshli Field" with the support of the Society of Petroleum Engineers.

Participants in the lecture included Khazar University students; Associate Professor Gasham Zeynalov, Head of the Department of Petroleum Engineering; and students of Azerbaijan State Oil and Industry University and Baku Higher Oil School.

The lecture was held in an interactive format. At the end, Azizov answered students' questions.

# Azərbaycan Milli Elmlər Akademiyası MƏRKƏZİ ELMİ KİTABXANA

## XƏZƏR UNİVERSİTETİNƏ HƏDİYYƏ

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının təşkil etdiyi "Kitab hədiyyə aksiyası" əsasında MEK-in mübadilə fondundan Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinə 152 adda, 449 nüsxə kitab hədiyyə olunmuşdur.

Kitabxanaya hədiyyə olunmuş kitabların müəyyən bir hissəsini Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri, lüğət və ensiklopediyalar təşkil edir.

## GIFT FROM CENTRAL ACADEMIC LIBRARY TO KHAZAR UNIVERSITY

On December 12, the Central Academic Library of the Azerbaijan National Academy of Sciences presented 449 volumes in 152 titles from its exchange fund to Khazar University as part of its "Book Gift Campaign."

A portion of the books that were presented to Khazar include works of well-known authors of Azerbaijan and the world, dictionaries and encyclopedias.

# TƏLƏBƏMİZ DÜNYA ÇEMPİONATINDA GÜMÜŞ MEDAL QAZANDI




Dekabrın 5-dən 7-dək Ukraynanın Xarkov şəhərində böyüklər arasında keçirilən kikboksinq üzrə dünya çempionatında Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsində tərcümə ixtisası üzrə təhsil alan III kurs tələbəsi Firudin Həsənov 2-ci yeri tutmuş və gümüş medala layiq görülmüşdür.

Xatırladaq ki, F. Həsənov müxtəlif beynəlxalq turnirlərin qalibidir. O, bundan əvvəl öz növündə 6 dəfə Azərbaycan çempionu olmuş, Avropa və Avrasiya yarışlarında qızıl medala layiq görülmüşdür.

## KHAZAR STUDENT EARNS SILVER MEDAL IN WORLD CHAMPIONSHIP

On December 5-7, an adult world kickboxing championship was held in Kharkov, Ukraine. Firudin Hasanov, third-year student of Khazar University's School of Humanities and Social Sciences majoring in translation studies, took second place and earned a silver medal in the event.

We note that Firudin Hasanov is a winner of several international championships. He has been the Azerbaijani champion of his category 6 times and has won gold medals in European and Eurasian competitions.

## "ELEKTRON RESURSLARIN EFFEKTİV İDARƏ OLUNMASI" MÖVZUSUNDA TƏLİM

Dekabrın 12-də Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzinin (KİM) Elektron informasiya xidmətləri bölməsi İqtisadiyyat və menecment fakültəsinin bakalavr tələbələri üçün "Elektron resursların effektiv idarə olunması" mövzusunda təlim keçirdi. Təlimçi KİM-nin Elektron informasiya xidmətləri bölməsinin müdiri Səidə Cəfərova idi.

Təlimdə tələbələrə elektron kataloqdan istifadə qaqaydaları (OPAC), onlayn məlumat bazaları və onların axtarış üsulları və dünya ali məktəblərinin ***Webometrics*** reytinqinə görə birinci olmuş Xəzər Universitetinin Elektron Arxivi barəsində geniş məlumat verildi.

Sonda mövzu ilə bağlı tapşırıqlar yerinə yetirildi.







## "XƏZƏR" BƏSTƏKAR SƏRDAR FƏRƏCOVUN MÜƏLLİF KONSERTİNDƏ

Dekabrın 8-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Orqan və Kamera Musiqi Zalında görkəmli bəstəkar, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Sərdar Fərəcovun müəllif konserti keçirildi. Tədbirdə Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə, musiqi ictimaiyyətinin nümayəndələri, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin əməkdaşları və tələbələri, media mənsubları iştirak edirdilər.

Konsertin aparıcısı müsiqişünas Nərgiz Kərimova idi.

Konsertin birinci hissəsində Xəzər Universitetinin Kamera orkestrinin (bədii rəhbər Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, dosent, pianoçu Zülfiyyə Sadıqova, konsertmeystr Nəsrin Rzayeva ) ifasında bəstəkarın kamera əsərləri, həmçinin Hamlet İsaxanlının sözlərinə bəstələdiyi "İki lövhə" adlı əsəri Əməkdar artist Fəridə Məmmədovanın ifasında səsləndi.

Konsertin ikinci hissəsində bəstəkarın əsərlərini Dövlət Simli Kvarteti, Dövlət triosu və "Gənclik kvarteti ifa etdilər. Uşaq filarmoniyasının balaca solistləri və "Şəms" uşaq xorunun ifasında bəstəkarın uşaqlar üçün yazdığı əsərlər səsləndi.

Sonda S. Fərəcov konsertin təşkilatçı və iştirakçılarına, xüsusilə Xəzər Universitetinin rəhbərliyinə və musiqiçilərinə təşəkkürünü bildirdi.





# KHAZAR COMPOSER SARDAR FARAJOV'S CONCERT

On December 8, a concert featuring the works of well-known composer, Secretary of Azerbaijan Composers' Union, Meritorious Servant of Arts Sardar Farajov was held at the Muslum Magomayev Azerbaijan State Philharmonic Organ and Chamber Music Hall. Participants at the event included People's Artist Firengiz Alizadeh, Chairman of the Composer's Union; Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; university staff members and students; and media representatives.

During the first half of the concert, the Khazar University Chamber Orchestra (Artistic Director- Associate Professor Zulfiyya Sadigova, Head of the Department of Music and Fine Arts; concertmaster Nasrin Rzayeva) performed chamber pieces by the composer, and Meritorious Artist Farida Mammadova performed his "Two Sketches" composed based on lyrics by Hamlet Isaxanli.

In the second half of the concert, the composer's pieces were performed by the State String Quartet, the State Trio and the Youth Quartet. Young soloists of the Children's Philharmonic and the "Shams" Chior also performed pieces that Farajov wrote for children.

At the end of the event, Farajov thanked the concert participants and organizers, especially the administration of Khazar University and its musicians.



# İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNİN MƏZUNLARI İLƏ GÖRÜŞ

Dekabrın 10-da Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsini 2016-cı ildə bitirmiş bakalavr məzunlarının bir qrupu ilə universitet rəhbərliyinin görüşü keçirildi. Məzunlarla İş Mərkəzinin direktoru Baba Bayramlı məzunları salamladı və onları müzakirələrdə fəal olmağa çağırdı.

İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. İnqilab Əhmədov tələbələrə fakültənin magistr proqramları barədə ətraflı məlumat verdi və məzunlara təhsillərini Xəzər Universitetində davam etdirməyi tövsiyə etdi.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs və İdarəetmə və tələbə işləri üzrə prorektor Dr. İsaxan İsaxanlı məzunların Xəzər Universiteti haqqında fikirlərinin əhəmiyyətini vurğuladılar və bu barədə səmimi söhbət aparılmasının gələcək fəaliyyət üçün faydalı olacağını qeyd etdilər.

Sonra məzunlarla ətraflı müzakirə aparıldı.

# SCHOOL OF ECONOMICS AND MANAGEMENT MEETS WITH ALUMNI

On December 10, the university administration held a meeting with 2016 bachelor-level graduates of the School of Economics and Management. Baba Bayramli, Director of the Center for Alumni Relations, opened the meeting by greeting the alumni and calling on them to actively participate in discussions.

Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management, gave the participants detailed information about the School's MBA program and recommended that they consider continuing their education at Khazar.

Dr. Hassan Niknafs, President of the University, and Dr. Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs, emphasized that alumni's thoughts about Khazar University are important. They noted that sincere discussion with the graduates would be useful for the university in the future.

Then a discussion was held with the alumni.



# "XƏZƏR"İN ƏMƏKDAŞI MONTPELLIER UNİVERSİTETİNDƏ TƏDQİQAT APARMIŞDIR

Xəzər Universiteti Təhsil fakültəsinin Bioloji elmlər departamentinin müdiri və Hüceyrə Patologiyası Tədqiqat Mərkəzinin direktoru Dr. İradə Xəlilova noyabrın 21-dən 30-na qədər Erasmus+ mobillik qrantı üzrə Fransanın Montpellier Universitetində Odontolgiya fakültəsinin Biologiya, Səhiyyə və Nanotexnologiya tədqiqat laboratoriyasında *(Faculty of Odontology, Research Laboratory of Biology, Health and Nanoscience)* mezenxim kök hüceyrələrinin osteoblastlara çevrilməsi və diş toxumasının regenerasiyasında biomaterial ilə birgə istifadə edilməsi haqda tədqiqat işi aparmışdır.

Noyabrın 29-da İ. Xəlilova laboratoriyanın əməkdaşları və tədqiqatçılar üçün "Xəstəliyin erkən diaqnostikası üçün oksidativ stress biomarker tədqiqatı" ("*Oxidative stress biomarker research for early disease diagnostics*") mövzusunda seminar keçirmişdir. Seminarda Dr. Veronique Véronique Barragan-Montero, Dr. Pierre-Yves Collart-Dutilleul, Dr. Hamideh Salehi və digər tədqiqatçı və Ph.D. tələbələr iştirak etmişlər. Seminar maraqlı müzakirələrlə nəticələnmişdir. Sonda, Odontologiya fakültəsinin laboratoriyasında tədqiq edilən bəzi nümunələrin iltihab əleyhinə olan aktiv komponentləri Xəzər Universitetinin Hüceyrə Patologiyası Tədqiqat Mərkəzinin laboratoriyasında "in vitro" testlər qoyulması üçün verilmiş və bu işdə geniş əməkdaşlıq müzakirə olunmuşdur. Dr. Xəlilova həmçinin, həmin fakültənin tələbələri ilə təcrübə dərslərində iştirak etmişdir.

## KHAZAR FACULTY MEMBER PERFORMS RESEARCH AT MONTPELLIER UNIVERSITY

Pathology Research Center at Khazar University, performed research on mesenchyme stem cells becoming osteoblasts and the use of biomaterials along with dental tissue regeneration in the Faculty of Odontology's Research Laboratory of Biology, Health and Nanoscience at Montpellier University in France as part of an Erasmus + mobility grant.

On November 29, 2016, Dr. Khalilova gave a lecture on "Oxidative stress biomarker research for early disease diagnostics" for staff members and researchers of the Laboratory. Participants in the seminar included Dr. Veronique Véronique Barragan-Montero, Dr. Pierre-Yves Collart-Dutilleul, Dr. Hamideh Salehi, other researchers and PhD students. The seminar concluded with interesting discussions. After the seminar, plans were made to establish partnership between the two universities and specifically to send samples to the Khazar University research laboratory for in vitro analysis of anti-inflammatory active components that were studied in the Faculty of Odontology Laboratory. During the visit, Dr. Xəlilova also participated in laboratory classes along with students of the same Faculty.

# "ƏLÇATAN TƏHSİL – ƏLÇATAN GƏLƏCƏK" ADLI TƏLİM KEÇİRİLDİ

Dekabrın 2-3-də Xəzər Universitetində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə, Y-PEER Azərbaycan şəbəkəsinin və Xəzər Universitetinin Əlilliyi olan Tələbələr Mərkəzinin təşkilati dəstəyi ilə "Əlçatan təhsil – Əlçatan Gələcək" layihəsi çərçivəsində təlim keçirildi.

Təlimin məqsədi inklüziv təhsillə bağlı məlumatlandırma, əlilliyi olan uşaqlarla düzgün pedaqoji yanaşma və davranışın inkişaf etdirilməsi idi.

Təlimdə özünü potensial təlimçi və ya təhsil işçisi kimi görənlər, əlilliyi olan uşaqlarla çalışarkən yeni yanaşma və bacarıqları öyrənmək istəyən 18-25 yaş arası gənclər iştirak edirdilər.

Təlim zamanı əlilliyi olan şəxslərin yaşadığı çətinlikləri hiss etmək, onları daha yaxşı anlamaq üçün müxtəlif oyunlar keçirildi, səhnəciklər göstərildi.

Təlimin sonunda iştirakçılara sertifikat verildi.

Dekabrın 9-10-da da eyni mövzuda təlim keçirilmişdir.Həmin təlim haqqında Azpress.az saytı xəbər yaymışdır:

*http://azpress.az/index.php?lang=az&section id=news&id=63787*



# "ACCESSIBLE EDUCATION- ACCESSIBLE FUTURE" TRAINING AT KHAZAR

On December 2-3, a training event called "Accessible Education- Accessible Future" was held with the support of the Youth Foundation of the President of the Azerbaijan Republic, Y-PEER Azerbaijani network and Khazar University's Center for Students with Disabilities.

The main goal of the training was to inform participants about inclusive education as well as correct pedagogical approaches for working with students with disabilities.

Participants in the training included young people aged 18-25 who are interested in being trainers or educators in the future, and who want to learn more about new approaches and skills for working with children who have disabilities.

The training included various games and skits to help participants understand how people with disabilities feel and how to relate to them. At the end of the training, participants were given certificates.

On December 9-10, repeat trainings were held on the same topic.

An article was published on the site Azpress.az about training that was held on December 9-10:

*http://azpress.az/index.php?lang=az&section id=news&id=63787*

## THOMSON REUTERS-İN İCRAÇI DİREKTORU XƏZƏR UNİVERSİTETİNDƏN DANIŞDI

Noyabrın 29-da "Kaspi" qəzetinin internet səhifəsində "Web of Science" platformormasında" adlı məqalə yayımlanmışdır. Məqalədə Rusiya və MDB üzrə Thomson Reuters-in icraçı direktoru Peter Marczewski-nin Xəzər Universitetinin Khazar Journal of Humanities and Social Sciences ("Xəzər humanitar və sosial elmlər jurnalı") "Web of Science" platformormasında universiteti geniş tədqiqat qurumu kimi tanıtdığını, Thomson Reuters və Azərbaycan Respublikası arasında elmi əməkdaşlığın inkişafında çox əhəmiyyətli bir rol oynadığını vurğulaması qeyd olunur.

Məqaləni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

*http://kaspiy.az/news.php?id=50774*

## EXECUTIVE DIRECTOR OF THOMSON REUTERS SPEAKS ABOUT KHAZAR UNIVERSITY

On November 29, an article was published on the Kaspi Newspaper's website entitled "Web of Science Platform." The article mentions comments by Peter Marczewski, Executive Director of Thomson Reuters for Russia and the CIS, that the Khazar University Journal of Humanities and Social Sciences brings broad publicity to the university via Thomson Reuters' Web of Science platform and that it plays a significant role in the development of scientific partnership between Thomson Reuters and the Azerbaijan Republic.

The full text of the article is available at the following link:

*http://kaspiy.az/news.php?id=50774*

## TƏLƏBƏLƏRİMİZ ŞİRVANŞAHLAR SARAYINDA

Dekabrın 2-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin tarix ixtisası üzrə təhsil alan tələbələrindən ibarət qrup "Huawei" və "Bakcell" şirkətləri tərəfindən təşkil olunmuş "Açıq qapı" günlərində "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarixi-Memarlıq Qoruq-Muzeyində ekskursiyada oldular.

Şirvanşahlar saray kompleksi ilə tanışlıq və gəzinti Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanov tərəfindən təşkil edilmişdi.





# "QƏDİM ŞƏRQ TARİXİ, COĞRAFİYASI, MƏDƏNİYYƏTİ VƏ ƏDƏBİYYATI ÜZRƏ YARIŞ"IN YARIMFİNAL MƏRHƏLƏSİ KEÇİRİLDİ

Dekabrın 10-da Xəzər Universitetində Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun 8-ci qrant müsabiqəsinin qalibi olmuş "Elm şənliyi" layihəsi çərçivəsində "Qədim Şərq tarixi, coğrafiyası, mədəniyyəti və ədəbiyyatı üzrə yarış"ın yarımfinal mərhələsi keçirildi. Layihənin rəsmi tərəfdaşları Xəzər Universiteti, Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondu, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu, Misir Mədəniyyət Mərkəzi və Azərbaycan Arxeoloqlar Cəmiyyətidir.

Tədbirdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, həmin departamentin müəllimi Orxan Zamanov və digər universitetlərin müəllimləri iştirak edirdilər. Yarışda 7 komanda - Xəzər Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU), ADPU-un Şamaxı filialı, Dövlət İdarəçiliyi Akademiyası (DİA), Bakı Qızlar Universiteti, Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Texniki Universitetinin komandaları mübarizə apardı.

Yarışın yarımfinal mərhələsinin nəticələrinə əsasən, final mərhələsinə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Qızlar Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı Filialını təmsil edən komandalar çıxdı.












# SEMIFINAL ROUND OF "ANCIENT EASTERN HISTORY, GEOGRAPHY, CULTURE AND LITERATURE COMPETITION" HELD

On December 10, the semifinal round of the "Ancient Eastern History, Geography, Culture and Literature Competition" was held at Khazar University within the Science Party project that won the 8th Grant Competition of the Youth Foundation of the President of the Azerbaijan Republic. Official partners of the project are Khazar University, Youth Foundation of the President of the Azerbaijan Republic, Archeology and Ethnography Institute of Azerbaijan National Academy of Sciences, Egypt Cultural Center and Azerbaijan Archeologists' Society.

Alovsat Amirbeyli, Director for Public Relations and Media; Associate Professor Roza Arazova, Head of the Department of History and Archeology; Orkhan Zamanov, instructor of the same department; and other instructors. Teams in the competition were from Khazar University, Azerbaijan State Pedagogical University, Baku Girls' University, and the Shamakhi Branch of Azerbaijan State Pedagogical University.







# MARGO PFEİFF

*(Kanada)*

# "Su Pərisi"

*(Hekayə)*

Atasının ölümündən sonra qızı ovutmaq mümkün deyildi. Heç nə dərdinə çarə olmurdu, ta ki…

Ronda Cill dörd yaşlı qızının sözlərini eşidəndə heyrətindən donub qaldı. 1993-cü ilin oktyabr sabahında Deziri qonaq otağında sakitcə ağlayırdı. Ronda ayaqlarının ucunda qapıya yaxınlaşdı. Qarasaçlı balaca qızcığaz doqquz ay bundan əvvəl ölmüş atasının şəklini qucaqlamışdı. İyirmi dörd yaşlı Ronda Dezirinin barmaqları ilə atasının şəklini oxşadığını gördü. "Atacan", – o, astaca dedi, – "axı niyə qayıtmırsan?"

Qarayanız universitet tələbəsini kədər bürüdü. Əri Kenin ölümü ilə barışmaq onsuz da, olduqca çətin idi, amma qızı bu cür dərdə dayana bilməzdi. Kaş bu ağrını ona unutdura bilsəydim, – deyə, Ronda düşünürdü.

Ken Cil ilə tanış olanda Ronda Cilin 18 yaşı vardı. Bir-birlərinə sonsuz sevgi ilə bağlı olan cütlüyün ilk və tək övladı Deziri 1989-cu il yanvarın 9-da anadan olmuşdu.

190 sm boyunda, əzələli bir gənc olmasına baxmayaraq, Ken hamının çox sevdiyi nəzakətli insan idi. Onun həyatda ən böyük sevgisi Deziri idi. "O, doğrudan da atasının qızıdır" - Rondanın tez-tez dediyi bu sözlər Kenin gözlərində parıltılı bir qurur hissi ilə əks olunurdu. Ata-bala hər yerə birgə gedirdilər: həmişə gəzintiyə gedər, xanı balığı və qızıl balıq tutmaq üçün balıq ovuna çıxardılar.

Tədricən atasının yoxluğuna alışmaq yerinə Deziri bu ölümü qəbul eləməkdən belə imtina edirdi. "Atam tezliklə gələcək" - anasına deyirdi, "o işdədir". Oyuncaq telefonu ilə oynayarkən, sanki atası ilə danışırmış kimi deyirdi: "Darıxmuşam sənin üçün, atacan. Nə vaxt gəlirsən axı?"

Kenin ölümündən dərhal sonra Ronda mənzilini dəyişərək, anasının yaşadığı yerə yaxın bir evə köçdü. Dəfndən bir neçə həftə keçsə belə, Dezirini ovuda bilmirdilər. "Nə edəcəyimi bilmirəm" - Ronda Triş Mora, tibb işçisi olan 47 yaşlı anasına deyirdi.

Bir gecə hər üçü həyətdə oturub ulduzlara baxırdılar. "Deziri, o ulduzu görürsən?" - Nənə üfüqdə işıl-işıl parıldayan böyük ulduzu göstərdi. "Bax, bu atandı, cənnətdən yer üzünə işıq saçır".

Bir neçə gecə sonra Ronda ayılıb Dezirinin gecə paltarında qapı ağzında oturub, göz yaşları içində atasının ulduzuna baxdığını gördü. Qızı iki dəfə uşaq psixiatrının yanına apardılar, amma heç bir faydası olmadı.

Son çarə olaraq Triş Dezirini atasının qəbri üstünə apardı; ümid edirdi ki, atasının ölümü ilə üzləşmək ona bu ölümlə barışmağa kömək edə bilər. Uşaq başını atasının məzar daşına dayadı və dedi: "Çox diqqətlə qulaq assam, bəlkə atam mənimlə danışar, səsini duyaram".

Bir gecə Ronda Dezirini yatırarkən uşaq dedi: "Mən ölmək istəyirəm, anacan, bəlkə onda atamın yanına gedə bilərəm". "Allahım, mənə kömək ol", - deyə, Ronda Allaha dua eləyirdi. Əlindən başqa nə gəlirdi?!

Yaşasaydı, 1993-cü il noyabrın 8-də Kenin 29 yaşı olacaqdı. "Mən atama necə təbrik açıqcası göndərim?" - Deziri nənəsindən soruşdu.

"Bəlkə məktubu şara bağlayaq və göndərək cənnətə" - Triş dedi. Dezirinin gözlərinə sanki işıq gəldi.

Qəbiristanlığa gedən yolda qəbir ziyarəti üçün arxa oturacağı güllərlə dolu olan maşını bir dükanın önündə saxladılar. "Anana şar seçməkdə kömək elə", – deyə, Triş tapşırdı.

Deziri hava ilə doldurulmuş onlarla gümüşü şarın qoyulduğu rəfə baxıb, qəfildən qərarını verdi: "Bax bu". Disney filmlərindən olan Su pərisinin şəklinin yuxarı hissəsinə "Ad Günün Mübarək" sözlərini yazdırdılar. Deziri və atası bu filmə həmişə birlikdə baxardılar.

Gülləri Kenin qəbrinə düzdükcə, sanki qızın gözləri parlayırdı. Gözəl bir gün idi, xəfif külək evkalipt ağacının budaqlarını yelləyirdi. Daha sonra Deziri atasına bir məktub yazdırdı: "Ona de ki, ad gününü təbrik edirəm. Onu çox sevirəm və onun üçün çox darıxmışam", - bu sözləri Deziri birnəfəsə yazdırdı: "inanıram ki, atam bu məktubumu alacaq və yanvar ayında ad günümdə mənə cavab yazacaq".

Triş balaca bir kağıza Dezirinin sözlərini və ünvanı yazdı və plastik qaba qoyub şarın ipinin ucuna bağladı. Və Deziri şarı havaya buraxdı.

Demək olar ki, bir saat boyunca onlar gümüşü şarın havada gözdən itməsini seyr elədilər. "Yaxşı," - Triş dedi - "Evə getmək vaxtıdır".

Ronda və Triş qəbirdən azca uzaqlaşmışdılar ki, Dezirinin həyəcanla qışqırdığını eşitdilər. "Bunu gördünüz? Atamın gəlib onu götürdüyünü gördüm!"

Bir neçə dəqiqə bundan qabaq hələ də görünən şar artıq gözdən itmişdi. "İndi də atam mənə məktub yazacaq", - Deziri onları ötüb maşına tərəf gedərkən, bu sözləri dedi.

Soyuq və yağmurlu səhərlərin birində Şərqi Kanadada Şahzadə Edvard adasında 32 yaşlı Veyd MakKinnon ördək ovu üçün suyadavamlı silahını götürmüşdü. Meşə gözətçisi olan MakKinnon arvadı və üç uşağı ilə birlikdə Su Pərisi kəndində yaşayırdı.

Həmişə ov elədiyi çay mənsəbi yerinə o qəfildən üç kilometr aralıda olan Su Pərisi gölünə getməyə qərar verdi. Silahını orda qoyub, yağışdan islanmış küknar və şam ağaclarının yanından keçdi və az sonra doqquz hektar sahəsi olan gölü əhatə edən quşüzümü ilə dolu bataqlığa girdi.

Sahildəki kolların arasında nə isə tərpəndi və bu dərhal gözətçinin diqqətini cəlb etdi. Maraq içində kola yaxınlaşarkən, qurşağa çatan kolun budaqları arasında ilişib qalmış gümüşü bir şar tapdı. Şarın bir tərəfində su pərisi şəkli vardı. İpi açanda plastik qaba bükülmüş bir parça islanmış kağız gördü.

Evdə MakKinnon yaş kağızı ehtiyatla çıxardı və qurutdu. Arvadı Donna evə gələn-

də, şarı və yazını ona göstərib dedi: "Buna bax". O, maraq içində yazını oxudu: "8 noyabr 1993-cü il. Ad günün mübarək, atacan..." Məktubun sonunda Layv Oakda, Kaliforniyada yerləşən bir ünvan yazılmışdı.

"İndi noyabrın 12-dir. Bu şar dörd gün ərzində 5000 kilometr yol gəlib", - deyə, Veyd heyrətlə dedi.

Donna şarı çevirərək dedi: "Bir bura bax. Bu ki Su pərisi şarıdır və gəlib düz Su pərisi gölünə düşüb". "Biz Deziriyə cavab yazmalıyıq", - Veyd dedi. "Bəlkə də bu qızcığaza kömək etmək üçün seçilmişik". Amma görürdü ki, arvadı başqa hisslər keçirir. Gözləri yaşla dolmuş Donna bir qədər kənara çəkildi. "Belə balaca qızcığaz ölümlə mübarizə aparmalı olub. Bu ki dəhşətdir".

Veyd söhbəti uzatmadı. Məktubu şkafa qoydu və hələ də içi hava ilə dolu olan şarı qonaq otağının qarşısındakı eyvanın məhəccərinə bağladı. Amma şarın göz önündə olması Donnanı daha da narahat edirdi. Bir-iki gün sonra şarı götürüb mətbəx bufetinə atdı. Amma həftələr keçdikcə, Donna şar haqqında getdikcə daha çox düşündüyünün fərqinə varırdı. Bu şar Qayalı dağlardan və Böyük göllərdən keçib buralara gəlmişdi. Cəmisi bir neçə kilometr də getmiş olsaydı, okeana düşəcəkdi. Amma belə olmamış, burada, Su pərisi gölündə ilişib qalmışdı.

"Bizim övladlarımız necə də xoşbəxtdirlər", - deyə, o düşündü. Valideynlərinin hər ikisi sağlamdır. Veyd ölsəydi, hələ cəmisi iki yaşı olan qızı Heylinin hansı hissləri keçirəcəyini təsəvvürünə gətirdi birdən.

Səhəri gün Veydə dedi: "Haqlısan. Bu şar əbəs yerə bizə gəlməyib. Biz gərək Deziriyə kömək eləyək".

Kitab dükanından Donna "Su pərisi" nağılının yeni nəşrini aldı. Bir neçə gün sonra Milad bayramı ərəfəsində Veydin aldığı ad günü açıqcasında bu sözlər yazılmışdı: "Sevgili qızıma xoş arzularla. Ad günün mübarək, qızım".

Donna səhər oturub Deziriyə məktub yazdı. Məktubu tamamladıqdan sonra onu açıqcanın içində kitabın arasına qoydu. Sonra 1994-cü il yanvarın 3-də poçtla yola saldı.

Dezirinin beş yaşının tamam olmasını yanvarın 9-da kiçik bir ziyafətlə qeyd elədilər. Şarı havaya buraxdıqları vaxtdan bəri qızcığaz hər gün anasından soruşurdu: "Səncə, atam şarımı aldı?" Ad günü keçdikdən sonra artıq heç bir sual vermirdi.

Yanvarın 19-da günortadan bir az keçmişdi ki, MakKinnonların göndərdiyi bağlama gəldi. Nahar yeməyini hazırlamaqla məşğul olan Triş naməlum ünvana baxaraq, bunu Kenin ailəsindən kiminsə nəvəsinə göndərdiyi ad günü hədiyyəsi zənn etdi. Ronda və Deziri evlərinə getmişdilər, ona görə də Triş bağlamanı Rondaya sabah verməyi qərara aldı.

Həmin gün axşam televizor izləyərkən Trişin ağlından qəfil bir fikir keçdi. "Niyə kimsə Deziriyə hədiyyəsini bu ünvana göndərsin ki?" Bağlamanı açdıqda, içindən bir açıqca tapdı. "Sevimli qızıma". Nənənin ürəyi şiddətlə döyündü. İlahi! Bir anlıq düşünüb əlini telefona uzatdı. Gecə yarısını keçmişdi, amma Ronda ilə mütləq danışmalı idi.

Səhər saat 06:45-də Triş ağlamaqdan gözləri qızarmış halda qapıya yaxınlaşanda, qızı və nəvəsi artıq çoxdan oyanmışdılar. Ronda və Triş qonaq otağına keçib, Dezirini aralarında oturtdular. Triş bağlamanı nəvəsinə verdi. "Atan göndərib".

"Bilirəm", - deyə, Deziri sakitcə dedi. "Nənə, oxu mənim üçün".

"Atan ad gününü təbrik edir", - deyə, Triş oxumağa başladı. "Yəqin ki, mənim kim olduğumu bilmək istəyirsiniz. Noyabr ayında ərim Veyd ördək ovuna gedəndə başladı bütün bunlar. Heç bilirsiniz nə tapdıq? Sənin atana göndərdiyin su pərisi şarını..." Triş dayandı. Bir damla göz yaşı Dezirinin yanağından yavaş-yavaş üzüaşağı süzülürdü. "Cənnətdə mağaza yoxdur, yəqin ona görə də atan kiminsə onun yerinə sənə şar alması-nı istədi. Məncə, atan ona görə bizi seçib ki, biz Su pərisi adında bir şəhərdə yaşayırıq".

Triş oxumağa davam edirdi: "Bilirəm ki, atan sənin qəmgin yox, xoşbəxt olmağını istəyərdi. Bilirəm ki, atan səni çox sevir və həmişə səmadan səni izləyir. Sevgilərlə, MakKinnonlar".

Triş sözünü bitirib, Deziriyə baxdı. "Bilirdim ki, atam bir çarəsini tapar, məni unutmazdı", - qız dedi.

Triş göz yaşlarını silib, qolunu nəvəsinin boynuna saldı və MakKinnonların göndərdiyi Su pərisi hekayəsini oxumağa başladı. Bu hekayə atasının həmişə oxuduğu hekayədən fərqli idi. Həmin hekayədə Su Pərisi yaraşıqlı şahzadə ilə ömrünün sonuna kimi xoşbəxt yaşayır. Amma burda zalım cadugər quyruğunu kəsdiyi üçün pəri ölür. Onu üç mələk aparır.

Oxuyub qurtardıqdan sonra Triş narahat oldu ki, birdən əsərin belə bitməsi nəvəsini kədərləndirə bilər. Amma Deziri əllərini sevinclə üzünə vurdu. "O cənnətə gedəcək", - deyə, sevinclə qışqırdı. "Ona görə atam bu kitabı göndərib mənə. Çünki su pərisi də onun kimi cənnətə gedəcək".

Fevral ayının ortalarında MakKinnonlar ailəsinə Rondadan bir məktub gəldi: "Yanvarın 19-da sizin göndərdiyiniz bağlama ilə qızımın arzusu həyata keçdi".

Növbəti bir neçə həftə ərzində MakKinnon və Cill ailəsi telefonla əlaqə saxladılar, mart ayında isə Ronda, Triş və Deziri MakKinnonları ziyarət etmək üçün Şahzadə Edvard adasına getdilər. Birlikdə göl kənarında Veydin şarı tapdığı yerə baxmaq üçün meşə ilə gedərkən, Ronda və Deziri susurdular, sanki Kenin onların yanında olduğunu hiss edirdilər...

İndi hər dəfə atası haqqında danışmaq istəyəndə, Deziri MakKinnonlara zəng edir. Bu bir neçə dəqiqəlik telefon söhbəti qədər heç bir şey rahatlıq gətirmirdi balaca qıza.

Ronda deyirdi: "İnsanlar düşünür ki, su pərisi şarımızın Su pərisi adlanan o qədər uzaq bir yerə düşməsi həqiqətən böyük təsadüfdür. Amma mən bilirəm ki, Ken balaca qızımıza öz sevgisini göstərmək üçün MakKinnonları seçdi. İndi Deziri başa düşür ki, atası həmişə onun yanındadır."

*Tərcümə etdi:*
**Gülnaz Cavadova**



# WORLD'S MOST VISITED TOURIST ATTRACTIONS

In 2013, 77 percent of Vegas tourists—30.5 million—chose to stay at hotels right on the four-mile-long Strip. And why not? Roll out of bed and onto the Strip to catch the Bellagio fountains in action, shop, gamble, and, of course, people-watch (which can get especially fun later at night). For a cool new vantage point, hop aboard the High Roller, a 550-foot-tall Ferris wheel that debuted in March 2014. It's part of Linq, a flashy 300,000-square-foot shopping and entertainment complex by Caesars.



# MEIJI JINGU SHRINE, TOKYO

Built more than 100 years ago to honor the divine souls of Emperor Meiji and Empress Shoken, this Shinto shrine in bustling Tokyo is a peaceful haven surrounded by a holy forest of more than 100,000 trees. Seasonal gardens feature spring azaleas, summer irises, brilliant autumn leaves on Japanese maples and ginkgos, and black pines dusted with winter snow.

**ANNUAL VISITORS:**
**30,000,000**



Source: japan national tourism organization (jnto) © Paul Brown / Alamy

# SENSOJI TEMPLE, TOKYO

Tokyo's oldest temple was dedicated to the Bodhisattva Kamon, the most compassionate Buddha, in 628. Dramatic nighttime illumination highlights vermilion and crimson detailing in the Five-Storied Pagoda. Continuing centuries-long tradition, stalls along the temple's Nakamise Street sell food and goods to pilgrims, whose numbers swell around New Year's.



**ANNUAL VISITORS:**
**30,000,000**

Source: Japan National Tourism Organization (JNTO) © Vincent St. Thomas / Alamy

# NIAGARA FALLS, NEW YORK AND ONTARIO




Straddling the border of the U.S. and Canada, three massive waterfalls, together called Niagara Falls, spill about 6 million cubic feet of water—from a maximum vertical drop of 165 feet—every minute. While there are about 500 taller waterfalls in the world, Niagara Falls is spectacular for its sheer power. It's also more accessible than many major falls, a short flight or drive for millions of regional tourists.

**Source: Niagara Tourism & Convention Corp./Canadian Tourism Commission**

# GRAND CENTRAL TERMINAL, NEW YORK CITY

Unlike harried commuters, visitors take their time in the main concourse of this Beaux-Arts landmark, pausing to view its glittering ceiling painted with a map of the constellations from the night sky. Shops, an annual holiday market, special events, and restaurants also attract attention. Two of the grandest venues are the Campbell Apartment, serving craft cocktails, and the historic Oyster Bar—featured on AMC's Mad Men—which shucks 2 million fresh bivalves a year.




**Source: Grand Central Terminal** **© Alex Segre / Alamy**



# DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

***TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.***

## İNGİLTƏRƏ



### LONDON UNİVERSİTETİNDƏ SENATE HOUSE KİTABXANASI

Kitabxana Bloomsbery rayonunda Malet Street-də məşhur London Universitetinin əsas binasının 14 mərtəbəsində yerləşir. 19 mərtəbəli bina 1937-ci ildə ar-deko üslubunda tikilib. Həmin vaxt Londonda hündürlüyünə görə Müqəddəs Pavel kilsədindən (64 metr) sonra ikinci idi.

Kitabxananın ildə 32-35 min oxucusu qeydə alınır.


XƏZƏR UNİVERSİTETİ
"DÜNYA" MƏKTƏBİ
SUMQAYITDA
- Xəzər Universitetinin Sumqayıtda yeni fəaliyyətə başlayan Dünya Məktəbi şagird qəbulu elan edir:
- Məktəbəqədər hazırlıq (5-6 yaş) - Azərbaycan, rus, ingilis dillərində
- Tədris bütün siniflər üzrə - Azərbaycan, rus dillərində
- İB Proqramları üzrə təhsil ingilis dilində
- İB diplomu əldə edən məzunlar dünyanın tanınmış universitetlərində birbaşa bakalavr təhsili almaq imkanı əldə edirlər.
- Məktəbdə Amerika universitetlərinə qəbul imkanı verən SAT kursları və SAT test mərkəzi fəaliyyət göstərir.
- Qəbul imtahanlarında yüksək nəticə göstərən şagirdlər güzəştli ödənişlə təhsil almaq hüququ qazanırlar.
- Keyfiyyətli təhsil almaq üçün zəngin kitabxana,müasir avadanlıqlarla təchiz olunmuş sinif otaqları və laboratoriyalar mövcuddur.
- Şagirdlərin hərtərəfli inkişafını təmin edən idman, rəqs, dram, musiqi və müxtəlif dərnəklər
- Şagirdlər sağlam qidalanır, məktəbə rahat və təhlükəsiz gediş-gəliş üçün avtobus xidməti ilə təmin edilirlər.
DÜNYA MƏKTƏBİ
Ünvan: Sumqayıt şəhəri,
44-cü məhəllə, Bakı küçəsi
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33
(+994 50) 669 86 33
E-mail: info@dunyaschool.az
www.dunyaschool.az



## Valideynlərin və şagirdlərin nəzərinə!

Xəzər Universitetinin Dünya məktəbi 2016-2017-ci tədris ilində I-XI siniflərə şagird qəbulu elan edir:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (International Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

# Dünya məktəbi

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom proqramında təlim ingilis dilindədir. Təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

# Məktəbəqədər hazırlıq

2016-2017 –ci il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.

Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

| Dünya məktəbi | Məktəbəqədər hazırlıq |
| --- | --- |
| Tel.: (+99412) 563 59 40 /47/48 | Tel.: (+99412) 563 59 43/ 45 |
| Mob.: (+99470) 844 08 88 | Mob.: (+99470) 560 15 18 |
| E-mail: info@dunyaschool.az | E-mail: bagca@dunyaschool.az |

http: //dunyaschool.az



**Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:**

**I qrup üzrə:**

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi

**II qrup üzrə:**

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər
- Turizm və otelçilik

**III qrup üzrə:**

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tərcümə (ingilis dili və digər dillər)
- Dizayn

**IV qrup üzrə:**

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya
- Kimya və biologiya müəllimliyi

**Universitetdə kadr hazırlığı aparılan bütün ixtisaslarda ödənişsiz və ya dövlət hesabına təhsil almaq mümkündür.**

Ünvan: Məhsəti küçəsi, 41
Əlaqə telefonları: (012) 421-68-11, (012) 417-91-33,
Faks: (012) 498-93-79
E-mail: contact@khazar.org
http//www.khazar.org

# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan, xaricə ən çox tələbə göndərən, xaricdən oxumağa tələbələrin ən çox gəldiyi, xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.

Xəzər Universiteti öz tədris proqramlarının müasirliyi, verdiyi təhsilin keyfiyyəti və ciddiliyi, geniş beynəlxalq əlaqələri ilə həm Azərbaycanda, həm də onun hüdudlarından çox-çox uzaqlarda geniş hörmət və nüfuz qazanmışdır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

2016-cı il iyunun 14-də **QS** (World University Rankings) təşkilatı inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələri universitetlərinin reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti Azərbaycanın ən yaxşı ali məktəbi seçilməklə yanaşı, göstərilən bölgənin ilk 70 ali təhsil müəssisəsi arasında yer almış yeganə Azərbaycan universitetidir.

2016-cı il senyabrın 6-da **QS** (World University Rankings) təşkilatı dünya üzrə ali təhsil müəssisələrinin 2016-2017-ci il üçün reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti dünya universitetləri sırasında 701+ yeri, Azərbaycan universitetləri arasında isə 1-ci yeri tutmuşdur.

## Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Başir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

## Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi və xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

## Təhsil haqqının ödənilməsində güzəştlər

Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
450-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**